Günəş Şərqdən doğur!

❒ № 120 (5401), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 9 iyul 2021-ci il (cümə)



## Məhsul bol olarsa, kəndlinin üzü gülər

Ona görə kəndliyə torpaq da, pul da, məsləhət də vermək lazımdır

(Səh.13)



## “Aİ həmişə burdadır, hər iki tərəf üçün əlçatandır"

Avropa İttifaqı Qarabağ münaqişəsindən sonra regionda dayanıqlı sülhün əldə olunmasına dəstək verəcək

**“Azərbaycan rəsmiləri ilə Dağlıq Qarabağ münaqişəsindən sonrakı vəziyyəti müzakirə etdim. Aİ olaraq münaqişədən sonra necə dəstək verəcəyimiz barədə danışdıq”.**

Bunu Azərbaycana səfərini başa vuran Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi deyib.

(səh.2)

## Yenə Rusiya aktiv vasitəçilik edəcək



Minalı ərazilərin xəritəsinin qaytarılması davamlı olacaq

(səh.7)

# Yenə mina partlayışı

## Vətəndaşlar hələ də qadağalara əməl etmirlər



## Füzulidə minaya düşənlərdən biri həlak olub, digəri ayağını itirib

(səh.9)

# “Proses çox ləng gedir”

*Toğrul İsmayıl: “Qarabağda Ermənistan silahlı birləşmələrinin varlığına son qoyulmalıdır”*



(səh.8)

## Azərbaycan, Türkiyə və Gürcüstan birgə təlim keçirəcək

(səh.2)

## ABŞ-la əməkdaşlığımız davam edəcək

Məqsədimiz bölgəni əməkdaşlıq, tərəfdaşlıq və sülh bölgəsinə çevirməkdir

(səh.3)

## Reytinqimiz yüksəlir

Azərbaycan vətəndaşları dünyanın 68 ölkəsinə vizasız səfər edə bilərlər

(səh.12)

## “İndi də yeni mövzu çıxıb”

Nazilə Səfərli: “Zəng edib deyirlər ki, şəhid ailəsiyik, məclisə neçəyə gələrsiniz?”

(səh.14)

# Azərbaycan və Türkiyə birgə addımlayır

## Prezident İlham Əliyev: ”Yeni geosiyasi reallığın ən böyük təntənəsi Şuşa Bəyannaməsidir”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına təbrik ünvanlayıb.**

*Sözügedən təbriki təqdim edirik:*

”Hörmətli sammit iştirakçıları!

Sizi səmimi qəlbdən salamlayır və ”Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə gerçəkləşdirilən növbəti Avrasiya İqtisadi Zirvə Toplantısının öz işinə başlaması münasibətilə təbrik edirəm.

Avrasiya iqtisadi zirvə toplantıları uzun illərdir uğurla sülh və dialoqu təşviq edir, qloballaşma dövründə yeni çağırışların müzakirə edildiyi bir platforma kimi Avrasiya regionunda əməkdaşlığın inkişafına hər zaman dəyərli töhfələr verir.

Builki sammit ”İnsanlık daha iyisini hak ediyor” (Bəşəriyyət daha yaxşısına layiqdir) devizi altında keçirilir və bunun da böyük rəmzi mənası var. Bəşəriyyətin rifahı, qlobal miqyasda bütün maraqların və siyasətlərin mərkəzində insan amilinin dayanması, insanların layiq olduğu bir dünyada yaşaması üçün bu gün hər birimiz məsuliyyət daşıyırıq.

Pandemiya ilə bərabər dünyamız hazırda iqlim dəyişikliyindən irəli gələn çağırışlar, qlobal təhlükəsizliyə təhdid yaradan bir sıra risklərlə üz-üzədir. Bütün bu problemlər qlobaldır və onların həlli də yalnız qlobal əməkdaşlıqla mümkündür. İnsanlığı təhdid edən problemlər üzərində birgə çalışma, ədalətin təmini, regional əməkdaşlıq, bərabərsizliyin aradan qaldırılması yeni geosiyasi nizamın da başlıca şərtidir.

Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi reallığı köklü surətdə dəyişməklə əməkdaşlığa, sülhə, regional və qlobal miqyasda dayanıqlı təhlükəsizlik sisteminin yaradılmasına istiqamətlənmiş strateji kurs həyata keçirir. İnsanlıq əleyhinə törədilmiş cinayətlərə, işğala son qoyan və regionda böyük inkişafa yol açan bu prosesdə qardaş Türkiyə bizə hər zaman yüksək dəstək verdi. Vətən müharibəsində qələbəmiz və hazırkı proseslər Azərbaycan-Türkiyə qardaşlığının, sarsılmaz birliyinin nailiyyətləridir.

Ən önəmlisi isə hər iki ölkənin özü üçün bir dəyərə çevirdiyi ədalət və inkişafın qələbəsidir. Yeni geosiyasi reallığın ən böyük təntənəsi isə Şuşa Bəyannaməsidir. Bu tarixi sənəd Azərbaycanla Türkiyə arasında qardaşlıq, dostluq, tərəfdaşlıq münasibətlərini müttəfiqlik statusunda rəsmiləşdirdi. Bu təhlükəsizlik və sülhə yüksək zəmanət sənədi Cənubi Qafqaz daxil olmaqla bütövlükdə Avrasiya üçün strateji əhəmiyyət daşıyır.

Azərbaycan və Türkiyə regionun resurslar, kommunikasiya və logistika potensialından səmərəli istifadəyə imkan yaradan, hər kəs üçün faydalı, firavan, layiqli gələcəyin qurulması naminə inamla birgə addımlayır. Ölkələrimizin enerji təhlükəsizliyinin təminatındakı qlobal rolu da Avrasiyada davamlı əməkdaşlıq və xalqların rifahı üçün möhkəm təməl olaraq qalacaqdır.

İnanıram ki, bu toplantıda aparacağınız müzakirələr bəşəriyyətin rifahı naminə əməkdaşlıq üçün yeni perspektivlərin müəyyənləşməsində faydalı olacaqdır.

Zirvə Toplantısının işinə uğurlar arzulayıram”.

## Tərəflər fikir mübadiləsi aparıblar

### Aİ komissarı Samir Nuriyev və Hikmət Hacıyevlə görüşüb



**Azərbaycanda səfərdə olan Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.**

Bu barədə Aİ komissarı ”Twitter”də bildirib.

“Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşdə xüsusilə əlaqələnməni vurğulayaraq, İqtisadi və İnvestisiya Planının reallaşdırılması ətrafında vacib fikir mübadiləsi apardıq. Həmçinin COVID-19-un yaratdığı çətinliklərə cavab verilməsi barədə danışdıq”, - deyə Aİ komissarı qeyd edib.

## Azərbaycan, Türkiyə və Gürcüstan birgə təlim keçirəcək

**Türkiyə, Azərbaycan və Gürcüstanın iştirakı ilə 4-8 oktyabr 2021 tarixləri arasında keçiriləcək ”Eternity-2021 təlimi”nin ilk planlaşdırma iclası keçirilib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

*Qeyd olunub ki, iclas Quru Qüvvələri Təlim İdarəetmə Mərkəzi Komandanlığında videokonfrans şəklində keçirilib.*



## “Aİ həmişə burdadır, hər iki tərəf üçün əlçatandır”

### Avropa İttifaqı Qarabağ münaqişəsindən sonra regionda dayanıqlı sülhün əldə olunmasına dəstək verəcək

**“Azərbaycan rəsmiləri ilə Dağlıq Qarabağ münaqişəsindən sonrakı vəziyyəti müzakirə etdim. Aİ olaraq münaqişədən sonra necə dəstək verəcəyimiz barədə danışdıq”.**

APA-nın məlumatına görə, bunu Azərbaycana səfərini başa vuran Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi deyib.

Komissar bildirib ki, Aİ münaqişədən sonra regionda daha uzunmüddətli və dayanıqlı sülhün əldə olunmasına dəstək verəcək: ”Artıq tərəflər saxlanılanların azad olunması və mina xəritələrini təqdim etməklə bu istiqamətdə addım atıb. Aİ olaraq bu mübadiləni alqışlayırıq. Gürcüstanın bu prosesdə rolu təqdirəlayiqdir, Gürcüstan Baş nazirini buna görə təbrik edirəm, o, tərəfləri bu addımı atmağa inandırıb. Biz Aİ olaraq dayanıqlı sülhün əldə olunması üçün istənilən dəstəyi göstərməyə hazırıq. Tərəflər regionun bərpası, yaraların sağalması üçün Aİ-nin dəstəyini istəyəcəyi təqdirdə, Aİ həmişə burdadır, hər iki tərəf üçün əlçatandır”.

# Rus hərbçilər zatən Zəngəzur dəhlizində olacaq

Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Rusiya hərbçilərinin Ermənistan-Azərbaycan sərhədlərinə yerləşdirilməsi ilə bağlı əhəmiyyətli müzakirələrin aparıldığını bildirib. Səfir erməni mediasına açıqlamasında deyib ki, rus sərhədçiləri artıq Zəngəzurdadır:



**Erməni tərəfi rus qoşunlarının sərhəddə cəmlənməsinə öz maraqları baxımından don geyindirirlər**

“Rusiya sərhədçiləri Ermənistan-Azərbaycan sərhəd hissələrində vəziyyətin sakit və sabit olmasına kömək üçün ərazilərə yerləşdiriliblər”. Sərhədçilərin Geqarkunik də daxil olmaqla, bütün sərhəd boyunca yerləşdirilməsinə gəlincə, Kopırkin bildirib ki, məsələ müzakirə olunur: ”Bu mövzuda praktik baxımdan əsaslı müzakirə və məsləhətləşmələr aparılır. Düşünürəm ki, hər şey Ermənistanın təhlükəsizliyi, sərhəddə sabitliyin təmin edilməsi və üçtərəfli formatda əldə olunmuş razılaşmaların həyata keçirilməsi maraqları ilə müəyyənləşdiriləcək”.

Qeyd edək ki, bundan əvvəl Geqarkunik valisi Qnel Sanosyan rus hərbçilərinin Geqarkunikdən Zəngəzura qədər yerləşməsi üçün üçtərəfli danışıqların aparıldığını açıqlayıb. Bir sıra analitiklərə görə, rus qoşunlarının Ermənistan sərhədinə cəmlənməsi, əsasən də Zəngəzur bölgəsinə toplaşması Azərbaycan üçün müəyyən risk təşkil edir.

**Siyasi şərhçi Azər Qasımov “Şərq”ə bildirib ki, rus qoşunlarının Ermənistan sərhədində cəmlənməsi fikri əslində özü yanlış yanaşmadır.** Ekspert bəyan edib ki, Rusiya qonşumuzdur və təbii olaraq bizimlə sərhəddə qoşunları var, amma bu o demək deyil ki, Rusiya bununla bizə təhlükə yaradır: ”Hazırda regionda baş verən proseslər bundan sonra baş verə biləcək təhlükələrin aradan qaldırılması istiqamətində gedir. Rəsmi Bakı proseslərin təhlükə yaradacaq istiqamətdə irəliləməsinə imkan vermir. Erməni tərəfi rus qoşunlarının sərhəddə cəmlənməsinə öz maraqları baxımından don geyindirirlər. Bu isə çarəsizlikdən irəli gəlir və ermənilərin özlərinə ürək-dirək verməsindən qaynaqlanır. Rusiya öz maraqlarını qorumaq şərti ilə regionda stabillik yaratmaq niyyətindədir. Azərbaycan-Ermənistan sərhədinə öz hərbçilərini yığması iki ölkə arasında baş verə biləcək insidentlərin qarşısını almaq cəhdidir. Eyni zamanda üçtərəfli müqavilənin şərtlərinə görə Zəngəzur dəhlizinin açılması üçün zəmin hazırlamaqdır”.

*A.Qasımov vurğulayıb ki, Rusiya öz maraqları qorunduğu təqdirdə regionda təhlükə yaratmağa meyilli deyil:* ”Təbii ki, Azərbaycanın da öz maraqları var. Bu baxımdan hazırda elə siyasət aparılır ki, Rusiya bu siyasəti öz maraqlarına təhlükə kimi qəbul etməsin. Hətta müəyyən məqamlarda təhlükə yarandıqda belə Azərbaycan-Türkiyə tandemi bu təhlükələri sovuşdurmaq gücündədir”.

**İsmayıl Qocayev**

# Çox qısa zamanda Qarabağda güclü iqtisadi inkişafı müşahidə edəcəyik



## *Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur*

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" imzaladığı fərmana əsasən ölkəmizdə 14 iqtisadi rayon təsnifləşdirilir. İqtisadi rayonlar çoğrafi baxımdan fərqlənməklə yanaşı, eyni zamanda iqtisadi potensialına uyğun olaraq qiymətləndirmənin aparılmasına imkan verir.

Bu baxımdan yeni təsnifat 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfərdən sonra formalaşmış yeni düzənə, reallıqlara uyğun olaraq həyata keçirilir. İqtisadi rayonlar sırasında yeni adda - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların adlarının daxil edilməsini də müşahidə etdik. Bu həm strateji, həm iqtisadi, həm də tarixi baxımdan kifayət qədər vacib qərardır. Əvvəlki təsnifatda Yuxarı Qarabağ, Kəlbəcər və Laçın iqtisadi rayonları var idi. Yeni təsnifatda Qarabağ bölgəsində yerləşən rayonlar, Qarabağ iqtisadi rayonunda təmsil olunacaq.

**Millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov deyib ki, Azərbaycanın 20 faizə yaxın ərazisinin 27 ildən çox işğal altında qalması həmin torpaqların iqtisadi potensialından istifadəyə imkan verməyib.** Deputat xatırladıb ki, əvvəlki təsnifata uyğun olaraq Yuxarı Qarabağ iqtisadi rayonu ötən il 637 milyon 70 min manat məhsul istehsal edib: ”Dörd rayonu əhatə edən keçmiş Kəlbəcər-Laçın iqtisadi rayonunda isə cəmi 97 milyon 838 min manatlıq məhsul istehsal olunub. Bu istehsal da həmin rayonlardan bəzisinin bizim nəzarətimizdə olan yaşayış məntəqələrində, respublikanın digər bölgələrində məskunlaşan idarə və müəssisələri hesabına baş verib. Qarabağın ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi 0,7 faiz, keçmiş Kəlbəcər-Laçın iqtisadi rayonunun isə cəmi 0,1 faiz olmuşdu. Bu o deməkdir ki, uzun müddət işğal altında qalan ərazilərimizin ümumi iqtisadiyyatda payı tam rəqəmlə ifadə olunmayıb.

Qarabağ iqtisadi rayonunun mövcud potensialı, xammal və təbii ehtiyatlar və məhsuldar torpaq sahələrinin həcmini nəzərə alsaq, bərpa mərhələsindən sonra qısa zamanda həmin ərazilərimizdə məhsul istehsalının artacağı proqnozlaşdırılır. Bu o deməkdir ki, çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-yenidənqurma, yeni iş yerlərinin yaradılması və güclü iqtisadi inkişafı müşahidə edəcəyik”.

*V.Bayramov vurğulayıb ki, Şərqi Zəngəzur iqtisadi rayonu strateyi, iqtisadi və ən əsası tarixi baxımdan xüsusi əhəmiyyəti daşıyır:* ”Şərqi Zəngəzur həmin bölgənin iqtisadi potensialının istifadə edilməsi və genişləndirilməsi aspektindən də vacibdir. Qarabağ iqtisadi rayonunun həm sənaye, həm turizm, həm də aqrar sektorda böyük potensialı var. Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur. İşğaldan azad olunmuş ərazilərimizdə, bütövlükdə Qarabağda yenidənqurma prosesinin daha sürətli şəkildə həyata keçirilməsi daha sistemli və dövlət proqramları çərçivəsində yanaşmanın həyata keçirilməsinə imkan verəcək”.

**Siyasi şərhçi Elçin Mirzəbəyli də bəyan edib ki, Prezidentin Fərmanı iqtisadi önəmi ilə yanaşı, bir çox aspektlərdən mühüm tarixi, hüquqi və siyasi əhəmiyyətə malikdir.** Analitikin fikrincə, Fərmanda yer alan bölgüdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yer alması, ilk növbədə tarixi ədalətin bərpasıdır: ”Fərmanda Xankəndi və Xocalının Qarabağ iqtisadi rayonuna daxil edilməsi, bu istiqamətdə olan bütün spekulyasiyalara son qoymaqla bərabər, həm də sözügedən yaşayış mənqətələrinin ölkənin digər inzibati ərazi subyektləri ilə eyni statusa malik olduğunu vurğulayır. Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının ”Şərqi Zəngəzir” adlı vahid iqtisadi rayonda birləşdirilməsi də, şübhəsiz ki, mühüm tarixi, hüquqi və siyasi əhəmiyyətə malikdir. Məlum olduğu kimi Azərbaycan Prezidentinin Sərəncam və Fərmanları Azərbaycan Respublikasının hüquqi-normativ aktları sayılırlar. Prezidentin Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, eyni zamanda Zəngəzur yaylasının de-fakto vahid inzibati ərazi subyekti kimi hüququ status qazanması deməkdir”.

**İsmayıl Qocayev**



# Hər gün atəşkəs pozulur, insidentlər yaşanır

## “Rusiya öz missiyasını yerinə yetirə bilmədiyi üçün bölgəni tərk etməlidir”

**İyulun 6-da Ağdam rayonunun Əliağalı kəndi istiqamətində yerləşən bölmələrimizin atəşə tutulması ciddi rezonans doğurub. Məlumdur ki, Ağdam rus sülhməramlılarının yerləşdiyi ərazidir. Artıq neçənci dəfədir Rusiyanın bölgədə sülhün pozulması istiqamətində maraqlı olduğu üzə çıxır.**

10 noyabr üçtərəfli bəyanatına əsasən rus sülhməramlıları ixtiyarında olan ərazilərdə sülhü təmin etməlidir. Lakin Ağdamda atəşkəsin pozulması bunun tam əksini göstərir.

**Mövcud durumla bağlı fikirlərini “Şərq”lə bölüşən Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı söyləyib ki, atəşkəsin pozulması Rusiya sülhməramlılarının regionda qalıb-qalmaması barədə məsələni bir daha gündəmə gətirir:** ”Həm atəşkəs pozulur, həm müxtəlif yerlərdə erməni terrorçu qrupları minalar basdırır, dinc əhali və hərbçilərimiz yaralanır. Bu isə o deməkdir ki, rus sülhməramlıları üzərinə düşəni yerinə yetirə bilmir. Üçtərəfli bəyanata əsasən Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxartmalıdır. Lakin bunların heç birinə əməl edilmir. Rusiyanın isə bölgədə şəxsi maraqları var. Bunun üçün də bölgədə varlığını davam etdirmək üçün əllərindən gələni edirlər. Azərbaycan baş verənlərə birmənalı şəkildə qiymət verməlidir. Yəni Rusiya öz missiyasını yerinə yetirə bilmədiyi üçün bölgəni tərk etməlidir. Bundan sonra Azərbaycan öz hərbi qüvvələrini yerləşdirib, regionda sülh və əmin-amanlığa nail olmalıdır”.

**Yeganə**



# ABŞ-la əməkdaşlığımız davam edəcək

## Məqsədimiz bölgəni əməkdaşlıq, tərəfdaşlıq və sülh bölgəsinə çevirməkdir

Xəbər verdiyimiz kimi, ötən günlərdə Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə ölkənin Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Ölkə başçısı məktubunda iki ölkə arasındakı əlaqələrlə bağlı mühüm məqamlara toxunub.

Prezident bildirib ki, Azərbaycan və ABŞ arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü ərəfəsində bir sıra sahələrdə strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlərimiz, ikitərəfli əlaqələrimizin inkişaf dinamikası məmnunluq doğurur:

”İrimiqyaslı enerji layihələri, beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyası çərçivəsində sıx əməkdaşlığımız Azərbaycan-ABŞ münasibətlərini səciyyələndirən mühüm istiqamətlərdəndir. Biz enerji təchizatı marşrutlarının diversifikasiyası, xüsusilə də Cənub Qaz Dəhlizinin uğurla tamamlanmasına Birləşmiş Ştatların göstərdiyi dəstəyi yüksək qiymətləndiririk”.



**Millət vəkili Asim Mollazadə iki ölkə arasındakı əlaqələri, NATO-nun bölgəyə gəlişi və bunun Azərbaycan üçün əhəmiyyətini ”Şərq”ə sadalayıb.** Deputat qeyd edib ki, Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır: ”Amerika hər zaman Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü dəstəkləyib, ölkəmizin enerji və nəqliyyat layihələrinə dəstək verib. Azərbaycan isə ABŞ-ın təhlükəsizlik sahəsində və terrorla mübarizəsində böyük dəstəklər göstərib. Dövlətimiz ABŞ-ın Əfqanıstandakı əməliyyatları zamanı da logistik yardımlar edib. Bu münasibətlər ilk növbədə bölgədə sabitliyə, sülhə və əməkdaşlığa xidmət edir. Bununla yanaşı Azərbaycan Qoşulmama Hərəkatının üzvü olsa da, heç bir hərbi blokun üzvü deyil”.

Parlament üzvünün sözlərinə görə, NATO ilə Azərbaycanın əməkdaşlığı çox genişdir: ”Azərbaycan Silahlı Qüvvələri yeni hərbi texnologiyaları NATO-dan öyrənir və bu istiqamətdə bizə ən böyük dəstək məhz Türkiyədən gəlir. Lakin Azərbaycan heç bir halda hansısa hərbi blokun üzvü olmağı düşünmür. Məqsədimiz bölgəni əməkdaşlıq, tərəfdaşlıq və sülh bölgəsinə çevirməkdir. Ona görə də Amerika ilə bu istiqamətdə əməkdaşlığımız davam edəcək”.

**Yeganə Bayramova**



> **Bu, həm o bölgəyə yaxın olan ermənilərin bu rifahdan faydalanmasına şərait yaradacaq, həm də Zəngəzur məsələsi Azərbaycanın gündəliyinə daxil ediləcək**

# Zəngəzur adının hüquqi ədəbiyyata daxil edilməsi tarixi hadisədir

## Yeni iqtisadi rayonlaşma ölkənin bütövlüyünü həll edəcək

**Prezident İlham Əliyev Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü haqqında mühüm tarixi qərara imza atdı. Bu fərmanla Respublikamızın 14 iqtisadi rayonunun bölgüsü təsdiq olundu.**

Mühüm məqam bu idi ki, ölkə başçısının bu fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Şərqi Zəngəzur rayonunun yaradılması həm də tarixi ədalətin bərqərar olduğunu göstərir. "Şərqi Zəngəzur" adı Zəngəzurun qərb bölgələrinin də Azərbaycan torpaqları olmasına aşkar mesajdır.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli mövzu ilə bağlı "Şərq"ə açıqlama verib.** O deyib ki, uzun müddət idi ki, Zəngəzur məsələsi gündəmə gəlirdi, amma siyasi ədəbiyyata daxil olmazdan qabaq onun hüquqi bazası yaradılmalı idi: "Prezidentin Fərmanı isə bir neçə mətləbi ortaya qoydu. Birincisi, ölkədə iqtisadi rayonlaşmanın sayı artdı. Çox güman ki, artıq rayonlaşma sistemindən iqtisadi rayonlaşmaya keçiriləcək. Bu yaxınlarda idarəetmənin icra hakimiyyətləri formasından bələdiyyələr forması tətbiqinə dönəcəyi istisna deyil. Seçkili bələdiyyə orqanları fəaliyyətə başlayacaq. İkincisi, ümumiyyətlə, Zəngəzur adının hüquqi ədəbiyyata daxil edilməsi lazım idi. Bu, baş tutdu. Üçüncüsü, adın Şərqi Zəngəzur adlandırılması həm də Qərbi Zəngəzur məsələsini meydana gətirmiş oldu. Qərbi Zəngəzur da tarixi baxımdan Azərbaycan torpaqlarıdır.

10 noyabr 2020-ci il razılaşmasına əsasən Zəngəzurdan kommunikasiya xəttinin çəkilməsi nəzərdə tutulur. Növbəti nüans ondan ibarətdir ki, Azərbaycanın Qarabağ iqtisadi vilayəti içərisində mövcud olan Xocalı, Xankəndi və Ağdərə istiqamətlərində Azərbaycan vətəndaşı olan ermənilər qalmışdı və müəyyən problemlər yaradırdılar. Sözügedən fərman bu məsələni birdəfəlik həll etdi və inzibati ərazi vahidlərinin sırf Azərbaycanın daxili məsələsi və ölkəmizin suverenliyi altında olduğunu da təsdiq etdi".

**Ə.Əlibəylinin sözlərinə görə, Şərqi Zəngəzurla bağlı ayrıca bir iqtisadi rayonun yaradılması ondan xəbər verir ki, Azərbaycan bütövlükdə bölgənin əsas problemini hərbi diktə ilə həll etdi və məsələnin iqtisadi tərəfi qaldı:** "Ən güclü siyasət iqtisadiyyatla baş verir. Məhz iqtisadi rayonların yaradılması, bu bölgələrin iqtisadi rayonlara daxil edilməsi Azərbaycanın investisiya gücünün mövcudluğu, bölgələrin inkişafı ilə bağlı başqa qüvvələrdən daha artıq maliyyə resurlarının olması dövlətimizin qüdrətli olduğu anlamına gəlir.

Yəni iqtisadi rayonlaşma həm ölkənin bütövlüyünü həll edəcək, həm o bölgəyə yaxın olan ermənilərin bu rifahdan faydalanmasına şərait yaradacaq, həm də Zəngəzur məsələsi Azərbaycanın gündəliyinə daxil ediləcək.

Bu, Qarabağ məsələsinin gündəmdən çıxması və Zəngəzur vasitəsilə bütün türk dünyasının birləşməsi deməkdir".

**Yeganə Bayramova**

---

# "Azərbaycan diqqətli olmalıdır"



## Həsrət Rüstəmov: "Rusiya regionda təhlükəsizliyi poza bilər"

*Ermənistanda Baş nazir vəzifələrini icra edən Nikol Paşinyan Moskvada səfərdədir. Rusiya Prezidenti Vladimir Putin yenidən hakimiyyətə gəlməsi münasibətilə onu təbrik edib. Tərəflər arasında hansı məsələlərin müzakirə olunduğu maraq doğurur. Sərhəddə baş verən təxribatlar isə bu şübhələri bir az da artırır. Moskva və İrəvanın istədiyi nədir?*

"Şərq" olaraq ADP sədrinin müavini, politoloq Həsrət Rüstəmovla bu suallara aydınlıq gətirdik.

**- Səfərin məhz indiki məqamda baş tutması nə ilə bağlıdır?**

- Bildiyiniz kimi, Paşinyan özünü Qərbmeyilli siyasətçi kimi aparır və həqiqətən, belə davranır. Amma reallıq bundan ibarətdir ki, Rusiyanın Ermənistanda ciddi dayaqları, təsir imkanları var. Paşinyan Moskvanın razılığı olmadan hakimiyyətdə uzun müddət qala bilməyəcəyini yaxşı anlayır. Ona görə yenidən hakimiyyətə gələndən sonra ilk xarici səfərin məhz şimal qonşumuza olması heç də təsadüfi deyil.

**- Görüş region üçün nələr vəd edir?**

- Bölgədə əleyhimizə nəsə dəyişməyəcək. Belə ki, həm Moskva, həm də İrəvan üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsində, iqtisadi əməkdaşlıqda maraqlıdır.

**- Sərhəddəki təxribatlarla görüşün hansı əlaqəsi var?**

- Seçkilərin bitməyinə rəğmən, Paşinyanın bütün proseslərə nəzarət etdiyini demək olmaz. Təxribatların Moskvanın tapşırığı ilə olması istisna deyil. Lakin provokasiyalar regiondakı "oyunçuların" siyasətini dəyişmək üçün yox, Paşinyana təsir etməkdən ötrüdür. Ola bilsin, Putin bu addımlarla Paşinyanı daha çox ram etmək istəyir.

**- Biz belə situasiyada necə davranmalıyıq?**

- Azərbaycan diqqətli olmalıdır. Rus qoşunları regionda olduğu müddətcə təhlükəsizlik istənilən an pozula bilər. Yəni daimi sabitlikdən arxayın olmamalıyıq.

**- Ermənistan tərəfdən silahların yenidən işə düşdüyü bir vaxtda növbəti anti-terror əməliyyatlarının başlanması ehtimalını necə qiymətləndirirsiniz?**

- Bu, maraqlarımıza uyğun deyil. Biz regionda iqtisadi əlaqələrin yaranmasına, möhkəmlənməsinə çalışmalıyıq. Ermənistan da başa düşməlidir ki, Azərbaycanla düşmən yox, dost olmaq lazımdır. Fəqət, diplomatik müstəvidə İrəvana lazımi, kəsərli cavablar verilməlidir.

**Kənan Novruzov**

---

**İyulun 7-8-də Astana formatında Suriya danışıqlarının 16-cı raundu keçirilib. Türkiyə, Rusiya və İran Suriya ilə bağlı birgə bəyanat veriblər. Tərəflər dinc sakinlərə təhlükə yaradan terrorçu, radikal qruplaşmaların fəaliyyətinin yenidən genişlənməsi ilə bağlı ciddi narahatlıq ifadə ediblər. Üç ölkə də vurğulayıb ki, İdlibdə sakitliyin qorunub saxlanmasını, razılaşmalara tam riayət olunması vacibdir:**



# Türkiyə, Rusiya və İranın mövqeləri əsasdır

## Suriyada sülhə nail olmaq üçün üç dövlətin səyi mütləqdir

"Fərat çayı ətrafında Suriyanın bütövlüyünə və qonşu ölkələrin milli təhlükəsizliyinə təhdid kəsb edən separatçı planlara qarşı mübarizədə qətiyyətimizi təsdiq edirik". Tərəflər Suriyanın şimal-şərqində uzunmüddətli təhlükəsizlik və sabitliyin əldə olunmasının yalnız ölkənin ərazi bütövlüyünün və suverenliyinin qorunub saxlanması əsasında mümkün olduğu ilə razılaşıblar: "Bu yerlərdə yeni reallıqların yaradılması cəhdlərini, terroçuluqla mübarizə adı altında qanunsuz özünüidarə təşəbbüslərini inkar edirik. İŞİD, Cəbhat Ən Nüsra, Əl-Qaidə təşkilatı ilə bağlı olan digər qrupların, habelə BMT tərəfindən terror təşkilatı kimi tanınan təşkilatların birdəfəlik məhv edilməsi məqsədilə əməkdaşlığın davam etdirilməsinin zəruri olduğunu düşünürük". Xatırladaq ki, Suriyaya dair beynəlxalq görüşlərin altıncı raundu Astanada 2017-ci ilin 14-16 sentyabr tarixlərində keçirilib. Həmin görüşdə Suriyada deeskalasiya zonalarının yaradılması elan olunub. İdlibdə monitorinqin İran, Rusiya və Türkiyə qüvvələrinin, qalan ərazilərdə isə Rusiya hərbi polisinin həyata keçirəcəyi barədə qərar qəbul olunub.

**Politoloq Əli Orucov "Şərq"ə açıqlamasında deyib ki, Suriya məsələsində Türkiyə, Rusiya və İranın fərqli mövqeləri var. Ekspertin sözlərinə görə, xüsusən Bəşər Əsədə qarşı münasibətdə yanaşmalar birbirinə ziddir:** "Türkiyə digər iki dövlətdən fərqli olaraq Əsədin legitimliyini tanımır və onun hakimiyyətdən getməsini təkidli tələb edir. Amma Suriyanın ərazi bütövlüyünün tanınması və təhlükəsizliyi məsələsində üç dövlətin maraqları üst-üstə düşür. Belə halda ortaq əməkdaşlıq mümkündür. Astana görüşlərində Suriyada terrorçuluğa qarşı birgə mübarizədə razılaşmalar əldə olunub. Yaxın Şərq məsələsində Türkiyə öz müttəfiqi ABŞ-dan nəinki dəstək ala bildi, əksinə, Amerika terrorçuları maddi və silah baxımından dəstəklədi. Ankara hökuməti bu barədə dəfələrlə Vaşinqtonu xəbərdar etsə də, yanlış yanaşmasından çəkindirməyə çalışsa da, ABŞ bildiyini edib. Belə məqamda Türkiyə regionda özünün təhlükəsizliyini qorumaq üçün digər oyunçularla əməkdaşlıq etməli olub".

**Partiya təmsilçisi qeyd edib ki, təbii ki, burada müəyyən kompramislər var:** "Qarşılıqlı güzəşt olmadan hansısa razılığa gəlmək mümkün deyil. Hər halda Suriyada uzunmüddətli sülhə nail olmaq və terrorçuluğun qarşısını almaq üçün üç dövlətin səyi mütləqdir. Suriyalı qaçqınlar Türkiyə üçün ciddi problem yaradır. Rəsmi rəqəmlərə görə, suriyalı qaçqınların sayı 3 milyondan çoxdur. Ümid edirik, Türkiyənin təhlükəsizliyinin təmin olunması istiqamətində daha qətiyyətli addımlar atılacaq, qərarlar veriləcək".

**İsmayıl Qocayev**

Ermənistanda Baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan Rusiyaya səfəri çərçivəsində Prezident Vladimir Putinlə görüşüb. Görüş zamanı Putin Nikol Paşinyanı seçkidə qazandığı qələbə münasibəti ilə təbrik edib. Daha sonra ikili münasibətlər və Qarabağ ətrafında baş verən proseslərin müzakirəsi aparılıb. Paşinyan hər zaman olduğu kimi yenə də bütün problemlərin səbəbi kimi Azərbaycanı göstərməyə çalışıb. O deyib ki, Rusiya sülhməramlılarının yerləşdirilməsindən sonra Qarabağda vəziyyət sabitdir, ancaq vaxtaşırı qeyri-stabillik ocaqları yaranır:

# Bölgədə problemlər həddindən artıq çoxdur

## Paşinyan Putini dinlədi, təlimatlarını da aldı



**Moskva regional kommunikasiyaların açılması işinin sürətlənməsini istəyir**

"Təəssüf ki, son zamanlar təhlükəsizliklə bağlı məsələləri tez-tez müzakirə edirik, çünki regionda vəziyyət qeyri-sabitdir. Əlbəttə, hər kəs sizin və Rusiya Federasiyasının 44 günlük müharibədə atəşkəsin əldə olunması üçün göstərdiyiniz səyləri bilir. Deməliyəm ki, rusiyalı sülhməramlıların yerləşdirilməsindən sonra Qarabağda vəziyyət sabitdir, ancaq vaxtaşırı narahatlıq ocaqları yaranır". Paşinyan qeyd edib ki, Azərbaycanla Ermənistanın sərhədində də vəziyyət sabit deyil. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Paşinyan-Putin görüşünü nəzərdə tutaraq qeyd edib ki, Moskva Ermənistan və Azərbaycan tərəfi ilə daimi kontaktdadır: "Paşinyan və Putin arasında ikitərəfli münasibətlər barədə ətraflı söhbət aparılıb. Üçtərəfli razılaşmadakı fərqli nüansların reallaşdırılması və ticari-iqtisadi əməkdaşlıq müzakirə olunub. Hər kəs Qarabağla bağlı üçtərəfli razılaşmanın reallaşdırılmasının vacib və alternativsiz olduğu qənaətindədir".

**İndiki məqamda Paşinyanı Moskvaya aparan səbəblərlə bağlı "Şərq"ə danışan politoloq İlqar Vəlizadə deyib ki, adətən Ermənistanda seçkilərdən sonra rəhbər şəxslərin ilk səfərləri Rusiyaya olur.** Analitik bildirib ki, Paşinyan da bu ənənəni pozmayıb. Lakin Paşinyanın budəfəki səfəri daxili qarışıqlıq və bölgədəki problemlərlə daha çox bağlıdır: "Seçkidə Paşinyana məğlub olan qüvvələr ruspərəst qüvvələr idi. Müxalifət, daha dəqiq desək, Koçaryan-Sarkisyan cütlüyü özünü Rusiyaya yaxın qruplar kimi təqdim edirlər. Ermənistanda müxtəlif söz-söhbətlər dolaşır, ziddiyyətli yanaşmalar sərgilənir. Yeni hökumətin siyasi kursunun Qərbə istiqamətlənəcəyi ilə bağlı iddialar səsləndirilir. Rusiya rəsmiləri seçkidən sonra Ermənistanda baş verənlərdən, xüsusən Moskva əleyhinə səslənən fikirlərdən narahatlıq duyur və bunu açıq ifadə edirdilər. Eyni zamanda Ermənistan-Azərbaycan sərhədində yaşananlar da ürəkaçan deyil. Erməni tərəfi rəsmi Bakını ittiham edərək, Azərbaycan Ordusunun, guya, Ermənistan sərhədlərindən içəri girdiyini, ölkə ərazisinə "təcavüz" etdiyini tirajlayırlar. Bunun ardınca isə KTMT-nin dərhal müdaxilə etməsini tələb edirlər. Əlbəttə, indiki məqamda bu cür çağırışlar Moskvanın maraqlarına cavab vermir. Rusiya heç bir halda, ən azından indiki məqamda Azərbaycanla üz-üzə gəlmək, münasibətləri korlamaq istəmir. Peskov məhz o səbəbdən açıqlamasında bəyan edib ki, "Moskva rus sərhədçilərini bütün Ermənistan sərhəddi boyu yerləşdirmək fikrində deyil".

**İ.Vəlizadənin fikrincə, Paşinyan mövcud ziddiyyətləri və Moskvanı narahat edən məqamları aradan qaldırmaq üçün Putinlə görüşə yollanıb:** "Səfərin nə dərəcədə uğurlu olduğunu vaxt göstərəcək. Görünən odur ki, Putin dondurulmuş üçtərəfli işçi qrupun, müvafiq komissiyanın fəaliyyətinin yenidən başlanması üçün Paşinyana təlimat verib. Çünki artıq seçki başa çatıb və Paşinyan qalib olub. Moskva regional kommunikasiyaların açılması işinin sürətlənməsini də istəyir. Qısacası, görüşdə Paşinyan Kreml rəhbərini inandırmağa, Putin isə erməni baş naziri müəyyən məsələlərə razılaşmağa və arxayınlaşdırmağa çalışıb".

**İsmayıl Qocayev**

---

ABŞ USAİD (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) vasitəsilə Azərbaycan hökumətinin COVID-19 pandemiyası ilə mübarizə səylərinə dəstək məqsədilə əlavə 1 milyon ABŞ dolları miqdarında vəsait ayırıb. Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger Şamaxıda üç səyyar klinikanın təhvil verilməsində iştirak etdiyi zaman bildirib.

# Borclu borclunun sağlığını istər

## Pandemiya ilə mübarizəyə milyonlarla kredit almağa ehtiyac yox idi




**"Azərbaycan hökumətinə pandemiya ilə mübarizə tədbirləri çərçivəsində əlavə yardım vəsaiti, yaxud da kredit ayıran təşkilatlar bununla ilk növbədə öz beynəlxalq reytinqlərini qorumağa çalışırlar"**

O bildirib ki, əlavə vəsait Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına (BQXQAC) verilib. Səfir qeyd edib ki, ABŞ çətin dövrlə üzləşdiyi zamanda Azərbaycana davamlı dəstək göstərməyə sadiq qalır: "Yalnız əl-ələ çalışmaqla biz COVID-19-a qalib gələ bilərik".

Həmçinin, Asiya İnkişaf Bankı da Azərbaycanın COVID-19 pandemiyasının mənfi sağlamlıq, sosial və iqtisadi təsirlərini azaltmaq üçün hərtərəfli planının həyata keçirilməsinə kömək məqsədi ilə Azərbaycan hökumətinə 250 mln. ABŞ dolları həcmində kredit xəttini təsdiqləyib. Bu barədə bankın açıqlamasında qeyd olunur. Kredit vəsaitinin ayrılmasıyla bağlı danışan AİB-nin prezidenti Masatsuqu Asakava bildirib ki, COVID-19 pandemiyasının davam edən təsirləri Azərbaycanın iqtisadiyyatı yaxşılaşdırmaq və yoxsulluğu azaltmaq üçün əldə etdiyi əhəmiyyətli irəliləyişə təhdiddir. "AİB Azərbaycanı dəstəkləməyə tam sadiq qalır və bu proqram hökumətə pandemiya ilə mübarizə tədbirlərini davam etdirməyə, yoxsul və həssas insanları qorumağa və iqtisadi bərpa üçün zəmin yaratmağa kömək edəcək", - deyə AİB-nin prezidenti qeyd edib. Kredit AİB-nin Kontraktiklik Dəstək Müəssisəsi nəzdində COVID-19 pandemiya cavab seçimi (CPRO) vasitəsi ilə maliyyələşdirilir. CPRO inkişaf etməkdə olan üzv ölkələrin pandemiyaya cavabı üçün AİB-nin 20 mlrd. dollarlıq genişləndirilmiş yardımının bir hissəsi olaraq yaradılıb.

Hazırda Asiya İnfrastruktur İnvestisiya Bankı, CAREC Proqramı ilə birlikdə hökumətin pandemiya reaksiyasını dəstəkləmək üçün İdarə Heyətinin təsdiqinə əsasən 100 mln. dollarlıq birgə maliyyələşdirmə kreditinin ayrılması üzərində çalışır.

Azərbaycana ayrılan əlavə vəsait və kreditlər hansı istiqamətdə xərclənəcək, necə yönləndiriləcək?

**İqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə açıqlamasında yardım və kredit mexanizminin fərqli olduğunu bildirib:**

- Bir var, yardım, bir də var kredit. Yardım təmənnasızdır və geri qaytarılmır. Amma kreditlərin verilmə mexanizmi olduğu kimi qaytarılma mexanizmləri də mövcuddur. Bu da kredit verən təşkilatın təsdiqlədiyi qaydalara bağlıdır. Məsələ burasındadır ki, Azərbaycanın kredit siyasəti dəyişib. Azərbaycan kifayət qədər maliyyə dayanıqlı ölkəyə çevrilib və özü investor kimi çıxış edir artıq. Bu sahədə ilk "pioner" SOCAR oldu. Və investor kimi çıxış etdi. Bir çox layihələr də icra edilib və edilməkdədir. Azərbaycan kredit alan ölkədən kredit verən ölkəyə çevrilibsə, bizə təklif olunan kreditləri dəqiq dəyərləndirməli, müsbət-mənfi tərəflərini müəyyənləşdirməlidir ki, ziyana düşməsin. Çünki bir neçə il əvvələdək kredit layihələri ilə bağlı ölkədə vəziyyət yaxşı deyildi. Şirkətlər kredit alır, sonra da məlum olurdu ki, onu təyinatı üzrə xərcləməyiblər. Bu da hökumətə problem yaradırdı. Ona görə də investor ölkə kimi biz təklif olunan kreditləri ətraflı qiymətləndirməliyik. Məsələn, hazırda Ələt İqtisadi Zonasına xarici investorları, transmilli şirkətləri cəlb etməli, onların bu iqtisadi zonaya yatırım qoymağa dəvət etməliyik. Düşünülmüş şəkildə bunu etməliyik. Bizim kortəbii kreditlərə ehtiyacımız yoxdur. Azərbaycan hökumətinə pandemiya ilə mübarizə tədbirləri çərçivəsində əlavə yardım vəsaiti, yaxud da kredit ayıran təşkilatlar bununla ilk növbədə öz beynəlxalq reytinqlərini qorumağa çalışırlar. Yəni bu yardım və kreditlər daha çox onların öz nüfuzunun möhkəmlənməsinə yönəlmiş addımlardır. Çünki Azərbaycanın bu yardımlara fundamental ehtiyacı yoxdur. Sadəcə, beynəlxalq təşkilatlarla əməkdaşlığın davamlığı, əlaqələrin genişlənməsi baxımından gərəkli hesab edilə bilər.

**F.İbrahimov pandemiya ilə mübarizə səylərinə dəstək məqsədilə ayrılan yardım və kreditlərin təyinatı üzrə xərclənəcəyini bildirib:**

- Şübhə yoxdur ki, bu vəsaitlər pandemiyadan zərərçəkən sahələrin dirçəldilməsinə, pandemiya ilə mübarizə tədbirlərinin gücləndirilməsinə sərf olunacaq. Biz onsuz da müşahidə etdik ki, pandemiyanın ilk mərhələsində Azərbaycan hökuməti adekvat addımlar atdı, sosial yönümlü layihələr icra etdi. Pandemiyanın zərərlərini minimuma endirmək istiqamətində real işlər gördü. Yeni xəstəxanaların, modul tipli xəstəxanaların açılması, pandemiyadan zərər çəkənlərə maliyyə yardımlarının göstərilməsi buna misaldır. Vəsaitlərin təyinatı üzrə xərcləndiyi gözəçarpan səviyyədədir. Pandemiyaya qarşı tədbirlər bu gün də davam edir. Vaksinlərin alınıb ölkəyə gətirilməsi və əhalinin vaksinasiyaya cəlb edilməsi prosesi gedir. Azərbaycan pandemiyanı daha az ağrılı və elastik keçirir. Burda xalqın dözümlülüyü də rol oynayır. Odur ki, beynəlxalq təşkilatlar və bankların ayırdığı yardım və kreditlərin də təyinatı üzrə sərf olunacağına şübhə qalmır. Son olaraq bunu deyim ki, Azərbaycan hökuməti pandemiya ilə mübarizə aparmağa iqtisadi gücü yetən ölkədir. Heç bir ölkəyə, təşkilata yardım üçün müraciət də etməyib. Hələ az inkişaf ölkələrə özü yardım edir. Yaxşı olar ki, beynəlxalq təşkilatlar az inkişaf etmiş ölkələrə, ehtiyacı olanlara təmənnasız yardım göstərsinlər.

**Məlahət Rzayeva**

# Vaxt yetişib

## "İsgəndər-M" məsələsini qaldırmalıyıq"



**Samir Hümbətov:** *"Raketin Ermənistana satılmasından və ya Gümrüdəki bazadan atılmasından asılı olmayaraq Moskva məsuliyyət daşıyır"*

Qarabağla bağlı "düyün"lər tədricən çözülür. Lakin "İsgəndər-M" müəmmasına hələ də aydınlıq gəlməyib. Baş prokurorumuz Kamran Əliyevin Moskvaya səfəri bu məsələnin gündəmə gələcəyi barədə müəyyən ümidlər yaradır. İstənilən halda hər kəs bilir ki, Azərbaycanın əlində ciddi "kozır" var. Deməli, biz gec-tez, mütləq ondan istifadə edəcəyik. Sonrasını isə düşmən düşünsün...

"Şərq" olaraq siyasi analitik Samir Hümbətovla "İsgəndər-M" raketi və digər proseslərlə bağlı həmsöhbət olduq.

**- Görüşdə Şuşada qalıqları tapılan raket məsələsinin müzakirə ediləcəyi haqqında nə düşünürsünüz?**

- Müharibədən sonra regiondakı siyasi vəziyyət dəyişdi. Xüsusilə Şuşa Bəyannaməsindən sonra Azərbaycan ciddi dividend qazandı, Rusiya qarşısında "əlimiz gücləndi". Moskvanın bizim KTMT-yə üzv olmağımızla bağlı təklifi, həmçinin sözügedən təşkilatın proseslərə neytral yanaşması onu deməyə əsas verir ki, şimal qonşumuz bizi özünə yaxınlaşdırmaq istəyir. Və bunun üçün şahmat dili ilə desək, kombinasiyalar hazırlayır. Məncə, artıq vaxt yetişib: "İsgəndər" məsələsini qaldırmalıyıq. Raketin Ermənistana satılmasından və ya Gümrüdəki bazadan atılmasından asılı olmayaraq Moskva məsuliyyət daşıyır. Şübhəsiz ki, şimal qonşumuzdakı bəzi dairələr baş verənlərdə maraqlı olub. Deməli, Kreml bizə konkret açıqlama verməlidir.

**- Bu "kozır"dan necə yararlana bilərik?**

- Məsələn, KTMT-yə üzv olmamaq üçün bəhanə kimi göstərmək mümkündür. Həmçinin beynəlxalq məhkəməyə çıxarıb təzminat tələb edə bilərik. Yəni hüquqi müstəvinin imkanlarından istifadə edərək məsələni siyasi sferaya gətirmək imkanımız var. Əsas odur ki, baş prokurorumuz fürsətdən uğurla yararlansın.

**- Bəs minalı ərazilərin xəritəsinin verilməsində?**

- Əlbəttə, həmin sənədlər Rusiyada var. Biz yenə də Moskvaya təzyiq imkanına malikik. Əgər xəritəni verməsələr, Kremli beynəlxalq məhkəmələrə verə bilərik. Bunu istəmirsə, tələbimizi yerinə yetirməlidir.

"Xəritəni verməsələr, Kremli beynəlxalq məhkəmələrə verə bilərik. Bunu istəmirsə, tələbimizi yerinə yetirməlidir"

**- Kamran Əliyevin və Ermənistanda Baş nazir vəzifəsini icra Nikol Paşinyanın eyni vaxtda Moskvada olması bir-birilə nə qədər əlaqəlidir?**

- Fikrimcə, vəzifələrinin fərqli olmasına rəğmən, tərəflər arasında gizli, ictimaiyyətə açıqlanmayan görüş keçirilə bilər. Onların bir çox məsələləri, o cümlədən Bakıda saxlanılan terrorçuları, minalı ərazilərin xəritəsini və digər məqamları müzakirə edəcəkləri gözlənilir.

**- Bütün bunlarda Kremlin marağı nədir?**

- Əlbəttə, ancaq öz ambisiyalarını düşünür. Niyyəti bu və ya digər formada regiondakı mövqeyini qorumaqdır.

**Kənan Novruzov**



## Erməniləri anladıqları dildə başa salmaq lazımdır

### Rusiya sülhməramlıları missiyalarının fərqində olmalıdır

**"Revanş və terror niyyətində olan hər bir erməni Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq mühiti üçün təhdiddir".**

*Bu barədə millət vəkili Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Ağdamda bir hərbçimizin yaralanması ilə nəticələnən hadisə göstərir ki, erməniləri anladıqları dildə başa salmaq lazımdır:* "Yeni cinayətlərin qarşısının alınması üçün "islah olunmamış" ermənilərin cəzalandırılmaları labüd və zəruridir. Ağdamda baş verən terror hücumu müvəqqəti olaraq onların nəzarətində olan ərazidən törədildiyi üçün, Rusiya sülhməramlıları məsuliyyətlərini daha dərindən dərk etməlidir. Onlar niyə Azərbaycanda olduqlarını unutmamalı və əsas diqqətlərini bölgəyə gəliş məqsədlərinə yönəltməlidirlər. 10 noyabr bəyanatının ruhuna, o cümlədən Rusiya dövlət başçısının dəfələrlə Azərbaycanın ərazi bütövlüyünə münasibətdə ifadə etdiyi və beynəlxalq hüquqa əsaslanan yüksək hörmət ruhunda mövqeyinə sadiq qalmalıdır. Ümumiyyətlə heç kim unutmamalıdır ki, Azərbaycan 6-cı nəsil silahlarla müharibə aparmış və qalib gəlmiş yeni hərbi gücdür. Ali Baş Komandanın rəhbərliyi və minlərlə şəhid və qazimizin qanı hesabına qazandığımız şanlı Zəfərə 3-5 erməni dığası, onları himayə edən kənar qüvvə kölgə sala bilməz. Bölgədə yeni reallığı Azərbaycan yaradıb və bu reallığın gələcək konturlarını da biz müəyyən edirik".

**İsmayıl**



## Yeniliklər gözlənilir

### Azərbaycanda Türkiyə ali məktəblərinin filialları açıla bilər

**Bakı Türk Təhsil Qurumları Əsasnaməsi imzalanacaq. Bu, Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığına dair fəaliyyət planında əksini tapıb.**

Sənəddə qeyd edilib ki, 2021-ci ildə Bakı Türk Təhsil Qurumları Əsasnamə qarşılıqlı razılaşma ilə tamamlanacaq və imzalanacaq. Bu işlərin həyata keçirilməsi Azərbaycan və Türkiyənin Təhsil nazirliklərinə tapşırılıb.

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında sözügedən sənədin əhəmiyyətini yüksək qiymətləndirib:** "Azərbaycanla Türkiyə arasında digər sahələrlə yanaşı, təhsildə də iş birliyi davam edir. Müəyyən qarşılıqlı layihələr planlaşdırılır. Və bu, daha çox peşə təhsili ilə əlaqədardır. Qəbul qaydalarında, proqramların hazırlanmasında müəyyən yeniliklər gözlənilir. Bildiyiniz kimi, Azərbaycanda Rusiyanın iki ali məktəbi var. Gələcəkdə Türkiyənin də müvafiq universitetlərinin, o cümlədən tibb təhsili verən ali məktəblərin filiallarının açılması istisna deyil. Hər halda təhsil sahəsindəki əməkdaşlığımız gələcəklə bağlı nikbin proqnozlar formalaşdırır".

**Kənan**

# "Komandir" romanında yaxşı filmin senarisi üçün material var

Jurnalist Aqşin Kərimov senarist, aktyor və rejissorlara çağırış edib. O, sosial şəbəkədə yazdığı statusda bir təklif irəli sürüb və əvvəllər də bu məsələni gündəmə gətirdiyini yazıb: "Yenə həmin təklifi səsləndirirəm. Şərif Ağayarın aprel şəhidi Raquf Orucova həsr etdiyi "Komandir" əsəri əsasında çox mükəmməl film çəkmək olar. Söhbət bədii filmdən gedir. Məncə, kino üçün əla senari yazıla bilər".




**Tanınmış yazar Şərif Ağayar "Şərq"ə açıqlamasında jurnalistin təklifini bu cür dəyərləndirib:** "Məsələ budur ki, mən və İsmayıl İman "Komandir" romanındakı bir süjeti senarilşədirmişik. Film üçün çoxlu ideyalar olsa da, hələlik real nəsə yoxdur. Təbii, başqaları da nəsə yaza bilər. Mən Aqşin bəyə təşəkkür edirəm. Onu şəxsən tanımıram, amma səmimiyyətlə yazdığına əminəm. Doğrudan da "Komandir" romanında bir yox, hətta bir neçə yaxşı filmin senarisi üçün material var. Yəqin ki, nə zamansa mütləq çəkiləcək. Ümid edirəm, bizim senarimiz də çəkiləcək. Görək".

**Kinoşünas-yazar Ceyhun Mirzəli isə ümumiyyətlə müharibədən bəhs edən filmlərdən söz açıb.** Ekspert "Şərq"ə bildirib ki, 44 günlük müharibə yeni bitib, hələ bir il tamam olmayıb. Onun sözlərinə görə, istənilən hadisənin filmləşdirilməsi üçün bir müddət zaman keçməlidir: "Müharibə mövzusunda bəzi gənclər yutubda çarxlar hazırlayır, qısa filmlər çəkirlər. Şübhəsiz, nə vaxtsa tam metrajlı filmlər də çəkiləcək. Rejissor Vaqif Mustafayevin "Fəryad 2" filmini çəkəcəyi ilə bağlı məlumat verilib. Buvaxtadək müharibə mövzusunda çəkilən filmlər içində yaxşısı, zəifi və orta səviyyədə olanı var. Yaxşı filmin alınması üçün yaxşı senari, material lazımdır. Maraqlı və baxımlı filmin çəkilişi zamanı Vətən müharibəsinin iştirakçıları, qazilərlə söhbət aparılması çox vacibdir. Rejissorlar qazilərin döyüş yolunu mütləq öyrənməlidirlər ki, ortaya keyfiyyətli film çıxsın".

"Rejissorlar qazilərin döyüş yolunu mütləq öyrənməlidirlər ki, ortaya keyfiyyətli film çıxsın"

**C.Mirzəli vurğulayıb ki, həqiqətən 44 günlük savaş müddətində heyrətamiz olaylar yaşanıb, qəhrəmanlıqlar göstərilib:** "Vətən müharibəsinin özü kino üçün yaxşı materialdır. Hesab edirəm ki, təkcə 44 günlük savaşın deyil, ümumilikdə Qarabağ müharibəsinin qazilərinin döyüş xatirələri dinlənməli, fikirləri nəzərə alınmalıdır. Əgər müharibədən, döyüşlərdən film çəkilirsə, real həyat materiallarına əsaslanmalıyıq. İstərdim ki, filmlərdə müəyyən qədər tarixi arxetiplər də işlənsin. Yəni qəhrəmanlıq salnamələri hansısa obrazın, personajın dilindən səsləndirilsin".

**İsmayıl Qocayev**

# Yenə Rusiya aktiv vasitəçilik edəcək

## *Minalı ərazilərin xəritəsinin qaytarılması davamlı olacaq*



**Əslində, Rusiya Amerikanın bu humanitar prosesdə iştirakının çox da əleyhinə deyil**

**44 günlük İkinci Qarabağ savaşından sonra Ermənistan tərəfi dəfələrlə 10 noyabr 2020-ci il razılaşmasının şərtlərini kobudcasına pozub. Üçtərəfli bəyanata əsasən, rəsmi İrəvan məğlubiyyətə uğrayan tərəf olaraq minalı ərazilərin xəritəsini Azərbaycana təqdim etməlidir. Lakin Ermənistanın prosesdən uzun müddət yayındığının şahidi olduq.**

Nəhayət, prosesin baş tutması üçün Azərbaycanda olan erməni terrorçularından bəziləri geri qaytarılmaqla minalı ərazilərin bir qisminin xəritəsi alındı. Gürcüstan vasitəçi kimi çıxış etdi, daha sonra isə Rusiya prosesə qoşuldu. Maraqlıdır, minalı ərazilərin xəritəsinin verilməsi qarşıdakı zamanlarda da davam edəcəkmi?

**Mövcud durumla bağlı ”Şərq”ə danışan siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, minalı ərazilərin xəritəsinin geri alınmasında əsas çıxış yolu Azərbaycanda olan erməni diversantların Ermənistana qaytarılmasıdır:** ”İndiyə qədər rəsmi Bakı erməni terrorçularının qaytarılması ilə minalı ərazilərin xəritəsini əldə etmək strategiyasını həyata keçirib. Məlumdur ki, erməni terrorçuları ilə bağlı Ermənistan cəmiyyətində Paşinyan hakimiyyətinə qarşı ciddi tələblər var. Seçkidən öncə qaytarılan 15 nəfər erməni diversantın seçki nəticələrinə təsir etdiyini bilirik. Minalı ərazilərin xəritəsinin qaytarılması prosesi davamlı olacaq. Başqa yol yoxdur. Çünki Azərbaycan Prezidenti də dəfələrlə vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin daha tez bərpası üçün minalı ərazilərin xəritəsi alınmalıdır. Əks təqdirdə vətəndaşların doğma yurdlarına geri dönməsi, bərpa işləri 10 illərlə vaxt tələb edir. Bəzən təqdim edilən xəritələrin reallığı nə dərəcədə əks etdirdiyinə dair çoxlu suallar yaranır. Təbii ki, mütəxəssislər bunu araşdırır. İlk dəfə ABŞ-ın vasitəçiliyi ilə humanitar proses baş tutdu. Daha sonra 15 erməni diversantın qaytarılmasında Rusiya vasitəçilik etdi. Əlbəttə, bu da Rusiya və Amerikanın bölgədə siyasi maraqlarından irəli gəlir. Əslində, Rusiya Amerikanın bu humanitar prosesdə iştirakının çox da əleyhinə deyil. Çünki Rusiya üçün əsas məsələ münaqişənin həllində əsas vasitəçi olmaq idi və buna da nail oldu. Lakin rəsmi Moskva Gürcüstanın prosesə qatılmasından narahat idi. Ona görə də Gürcüstandan sonra Rusiyanın erməni terrorçularının qaytarılmasına vasitəçilik etməsi gözlənilən idi. Proses davamlı olacaq və bu dəfə də Rusiya aktiv vasitəçilik edəcək”.

**A.Nərimanlının sözlərinə görə, növbəti dövrlərdə yenə erməni diversantlarının geri qaytarılması qarşılığında minalı ərazilərin xəritəsinin alınması gözlənilləndir:** ”Yəqin ki, proses uzun müddət davam etməyəcək. Əsas məsələ Azərbaycanın aldığı xəritələrin dəqiqliyinin nə qədər real olub-olmadığını yoxlaması, sonra prosesə başlamasıdır. Ağdamdakı mina xəritələrindən təxminən 1 ay sonra Zəngilan və Füzulidəki minalı ərazilərin xəritəsi alındı. Deməli, minalı ərazilərin xəritəsi realdır. Qarşıdakı həftə və aylarda bu proses davam edəcək. Paşinyan dünən Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşdü. Yəqin ki, növbəti təmas Prezident İlham Əliyevlə olacaq. Bu cür təmasların əsas hədəfi yekun müqavilənin imzalanması ilə bağlıdır. Fikrimcə, rəsmi Bakı bütün minalı ərazilərin xəritəsinin alınması üçün erməni terrorçularından sona qədər istifadə edəcək”.

**Yeganə Bayramova**



## Dağın başında post qurublar

### “Düşmənin atəş açdığı yerləri nəzarətə götürməyə tam hüququmuz var”

**Ermənistanda Nikol Paşinyan hakimiyyətini bərpa etdikdən dərhal sonra təxribatlar başlandı.**

Əvvəlcə yanğınlar törədildi, sonra isə atəşkəs pozuldu. Ağdamdakı provokasiya isə səbrimizin tarıma çəkilməsi deməkdir. Balıq yaddaşlı ermənilər, deyəsən, 44 günlük müharibənin niyə başlandığını və necə bitdiyini artıq unudublar.

**Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, düşmənə bunu xatırlatmağın vaxtıdır:** ”Ermənilərin atəş açdığı yerlərdə yaşayış yoxdur. Onlar dağın başında post qurublar. Həmin ərazilər bizim üçün strateji cəhətdən təhlükəlidir. Üstəgəl, 10 noyabr üçtərəfli bəyannaməsinə əsasən erməni silahlıları ərazidən çıxmalı idilər. Amma bu baş vermədi. Deməli, bizim düşmənin atəş açdığı yerləri susdurmağa, nəzarətə götürməyə tam hüququmuz var. Bundan sonra nəyi necə etmək lazım olduğunu anlayacaqlar”.

**Kənan**

# Zəngəzur dəhlizinin açılması Naxçıvana nəfəs verəcək

## *Yeni kommunikasiyaların yaradılması muxtar respublikanı tamamilə blokadadan çıxaracaq*

Naxçıvan Muxtar Respublikası ölkəmiz üçün, ümumilikdə, bütün türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm məkandır. Qeyd edək ki, Zəngilandan Naxçıvanda dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaq.

Bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaqdır. Zəngəzur dəhlizinin açılması isə Naxçıvan, həm də bizim üçün Avropaya qapı, türk dünyası üçün isə ümid bağına çevriləcək. Ötən gün Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovla görüşüb. Görüş zamanı səfir qeyd edib ki, İkinci Qarabağ müharibəsindəki tarixi qələbə ”Türk qapısı” adlandırılan Naxçıvanın strateji əhəmiyyətini bir daha ön plana çıxarıb”. Onun sözlərinə görə, Azərbaycan-Türkiyə münasibətləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Türkiyənin keçmiş Prezidenti Süleyman Dəmirəl tərəfindən vaxtilə iki ölkə arasında təməli qoyulmuş əlaqələrin davamıdır. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilməkdədir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirməək baxımından çox böyük əhəmiyyətə malikdir.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında Zəngəzur dəhlizinin əhəmiyyətindən danışıb.** Ekspert diqqətə çatdırıb ki, Zəngəzur dəhlizinin açılması təkcə Naxçıvanla Azərbaycanın şərq hissəsini, yəni ana hissəsinin birləşdirmir. Ekspert vurğulayıb ki, bu, ilk növbədə Naxçıvanın iqtisadi fürsətlərinin genişlənməsində çox mühüm rol oynayacaq: ”Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan bir keçid koridoru rolunu oynayacaq. Yeni Türkiyədən Orta Asiyaya, Orta Asiyadan Türkiyəyə, ordan da Avropaya qədər həm Azərbaycanı, həm də Naxçıvan Muxtar Respublikasını yeni keçid mərkəzlərindən birinə çevirəcək. Təbii ki, bunun da kifayət qədər iqtisadi və geosiyasi əhəmiyyəti olacaq”.



**İqtisadçı qeyd edib ki, dəhlizin açılması Naxçıvanın özünə də müsbət təsir göstərəcək:** ”Çünki Naxçıvan Ermənistanın işğalçı siyasəti nəticəsində uzun illər blokada şəraitində yaşayırdı. Bu da Azərbaycanı Naxçıvanın təminatında başqa ölkələrdən asılı vəziyyətə salmışdı. Yəni Azərbaycan həm İrandan, həm də Türkiyədən Naxçıvanın təminatını həyata keçirirdi. İndi birbaşa koridorun olması Naxçıvanın həm elektrik enerjisi , həm təbii qaz, həm də digər kommunikasiyalar ilə təmin olunmasında birbaşa keçid rolunu oynayacaq. Habelə, yerüstü nəqliyyatın, yəni həm avtomobil yollarının, həm də dəmiryollarının açılışı Naxçıvanın gələcəkdə daha çox iqtisadi fürsətlər qazanmasına şərait yaradacaq. Amma dediyim kimi, bu məsələyə tək dar çərçivədə, yəni Naxçıvanla Azərbaycanın arasında olan bir körpü kimi baxmaq düzgün deyil. Ona ümumilikdə şərq-qərb arasında bir körpü kimi baxmaq daha doğrudur. Bu dəhlizin reallaşdırılması Azərbaycanın bir nəqliyyat habına çevrilməsi yolunda atdığı addımları daha da genişləndirə bilər. Həmçinin daha pozitiv nəticələr doğura bilər”.

**Aynurə Pənahqızı**



# “Proses çox ləng gedir”

## Toğrul İsmayıl: “Qarabağda Ermənistan silahlı birləşmələrinin varlığına son qoyulmalıdır”

Ermənistan tərəfinin sərhəddə təxribatları artmaqdadır. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki erməni quldurları da təxribatlar törətməkdədir. İyulun 6-da qanunsuz erməni silahlıları Ağdam rayonunda yerləşən bölmələrimizi atəşə tutublar. Müdafiə Nazirliyindən verilən məlumata görə, atəş nəticəsində hərbi qulluqçumuz, baş gizir Sakit Dadaşov yaralanıb. Rusiyanın Müdafiə Nazirliyi isə bəyanat yayıb ki, "Dağlıq Qarabağda bütün təmas xətti boyu atəşkəs rejiminə riayət olunur". İyulun 7-də Ermənistan silahlı qüvvələri sərhəddə növbəti təxribata əl atıblar. Tovuz rayonu Qaralar kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri atıcı silahlardan atəşə tutulub.

Xatırladaq ki, erməni tərəfi bundan öncə sərhədin Kəlbəcər və Tovuz rayonları istiqamətlərində Ordumuzun bölmələrini atəşə məruz qoymuşdu. Qarabağ ətrafında və Cənubi Qafqaz regionunda baş verənlərlə bağlı ”Şərq”in budəfəki müsahibi Türkiyədə yaşayan həmyerlimiz, Kahramanmaraş Sütçü İmam Universitetinin professoru Toğrul İsmayıldır.

**- Toğrul bəy, erməni təxribatlarının artmasının səbəbi nədir, bölgədə vəziyyəti gərginləşdirmək niyyətində olanlar kimlərdir? Xüsusən, Qarabağdakı erməni separatçılarının Ağdamı atəşə tutmasına münasibətiniz necədir?**

- Azərbaycan Müdafiə Nazirliyi baş vermiş insidentlə bağlı dərhal Türkiyə-Rusiya Monitorinq Mərkəzini məlumatlandırdı. Çox təəssüf edirəm ki, Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında Ağdamda baş vermiş ciddi hadisə ilə bağlı heç bir xəbər yer almadı. Rusiya özü üçün propoqanda xarakterli oyun oynadı. İddia etdi ki, guya, ciddi heç nə olmayıb, hər şey rus sülhməramlılarının nəzarəti altındadır və s. Amma unutmayaq ki, sülhməramlıların birinci missiyası istənilən təxribatı önləmək, bu cür hadisələrin baş verməsinin qarşısını almaqdır. Qarabağda Ermənistan silahlı birləşmələrinin varlığına son qoyulmalıdır. Bu proses çox ləng gedir. Halbuki, 10 noyabr üçtərəfli sazişdə açıqca vurğulanır ki, Rusiya sülhməramlıları Qarabağdakı erməni silahlılarının bölgəni tərk etməsinə paralel olaraq orada yerləşməliydi. Ruslar Qarabağda müşahidə məntəqələri, postlar qurublar, amma erməni separatçıları ortalıqda sərbəst gəzişir. Məhkəmədə ifadə verən erməni diversantlar etiraf edirlər ki, onların bölgədə silahlı gəzib-dolaşmasına, Azərbaycan ərazisinə keçməsinə şərait yaradanlar rus sülhməramlıları olub. Ağdamda baş verən hadisə xoşagəlməz hadisədir və bunun birbaşa məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə düşür. Çünki məhz sülhməramlıların nəzarət etdiyi ərazilərdən Azərbaycan Ordusunun mövqeyi atəşə tutulub və nəticədə bir hərbçimiz yaralanıb.



**“Durumun həssaslığının fərqindəyik, rəsmi Bakının mövqeyini də başa düşürük. Amma elə məqamlar var ki, gecikmədən, dərhal sərt reaksiya verməк lazımdır"**

**- Bəzi analitiklər bəyan edirlər ki, sərhədlər müəyyən olunandan sonra provokasiyalar olmayacaq. Sizcə, təxribatlar nə zamanadək davam edəcək?**

- Ermənilərin yanaşmasını və proseslərə münasibətini nəzərə alsaq, təxribatlar hər zaman olacaq. Sülh və sabitlik düşüncəsində olmayan ermənilər və onların arxasındakı güclər istənilən an terrora, təxribata əl ataraq regionda gərginliyi artırmağa çalışa bilərlər. Bu, qaçılmazdır. Bütün məsuliyyət Moskvanın üzərindədir. Rusiya öz öhdəliklərini yerinə yetirmək məcburiyyətindədir.

**- Rusiya sülhməramlılarından narazılıq və şikayətlər çoxdur. Sizcə, Kremlin Cənubi Qafqaza sülh gətirmək niyyəti varmı?**

- Azərbaycan üzərinə düşən öhdəlikləri yerinə yetirməsinə baxmayaraq, Rusiya sülhməramlıları imzaladıqları sənəddən irəli gələn şərtlərə əməl etmirlər. Erməniləri silahsızlaşdırmaq əvəzinə özlərinə aid olmayan məsələlərlə baş qoşurlar. Ruslar ermənileri Qarabağa daşımaqla, onların sayını süni şəkildə artırmaqla məşğuldurlar. Əslində bu fəaliyyətin özü problemlidir. Üçtərəfli sazişə əsasən, qaçqınların Xankəndi və ətraf rayonlara qaytarılması prosesi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının iştirakı ilə həyata keçirilməlidir. Rusiya sülhməramlıları Qarabağı tez zamanda ”erməniləşdirmək” üçün ciddi canfəşanlıq edirlər. Bunun əsas səbəbi bölgədə uzun müddət qalmağa zəmin yaratmaqdır. Ancaq sülhməramlılar üzərinə götürdükləri missiyanı doğru-dürüst yerinə yetirməzsə, 5 il ərzində səlahiyyətlərinə uyğun işlər görməzsə, müqavilə qüvvədən düşə bilər. Durumun həssaslığının fərqindəyik, rəsmi Bakının mövqeyini də başa düşürük. Amma elə məqamlar var ki, gecikmədən, dərhal sərt reaksiya vermək lazımdır. Əslində, 10 noyabr üçtərəfli Bəyanatı da kəskin mövqe nümayiş etdirməyimizə imkan verir.

**- 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatlarının icra prosesi sizi qane edirmi?**

- Proseslər kifayət qədər ləng gedir. Düzdür, müəyyən addımlar atılır, müzakirələr aparılır. Amma ümumi gedişat arzulanan səviyyədə deyil və sadəcə məni yox, Azərbaycan ictimaiyyətini də qane etmir. Bunun obyektiv və subyektiv səbəbləri var. Əsas səbəblərdən biri Rusiya sülhməramlılarının etiraz doğuran, problem yaradan davranışları, 10 noyabr üçtərəfli sazişinə uyğun olmayan addım atmasıdır. Digər mühüm əngəllərdən biri isə Ermənistanın tutduğu aqressiv, qeyri-konstruktiv mövqedir. Hazırda üçtərəfli bəyanatın şərtlərinə, sadəcə, Azərbaycan tərəfi əməl edir. Amma bu saziş təktərəfli imzalanmayıb, burada Rusiya və Ermənistan rəhbərliklərinin də imzası var. Ona görə də Moskva və İrəvan qarşısında sazişlərə ciddi şəkildə əməl etmək tələbi təkrarlanmalı, müharibə təhlükəsi yenidən xatırladılmalıdır.

**- Artıq üç rayonun minalanmış xəritəsi ermənilərdən alınıb və əvəzində erməni diversantlar qaytarılıb. Fərqli mülahizələrə səbəb olan bu məsələ barədə düşüncəniz nədir?**

- Minalanmış əraziləri əks etdirən xəritələrin Ermənistandan alınması ağır prosesdir. Şükürlər olsun ki, proses artıq başlayıb və nəticələr var. Üç rayonun minalanmış xəritəsinin alınması müqabilində erməni diversantların təhvil verilməsi normal haldır. Dünyada qarşılığı olan bir mübadilədir. Onsuz da erməni diversantlara görə rəsmi Bakı üzərində təzyiqlər var. Azərbaycan tərəfi Qərbin təzyiqlərini öz lehinə çevirmək istəyir və bunu bacarır. İlk xəritə-erməni diversant mübadiləsi ABŞ və Gürcüstan vasitəçiliyi ilə reallaşdı. Bu, çox maraqlı məqam idi. Cənubi Qafqaz bölgəsi ABŞ və Avropa ölkələrinin də maraq dairəsindədir. Bölgədə ”sülhməramlı” missiyasını həyata keçirən Rusiya minaların alınmasında o qədər istəkli görünmür. O baxımdan ilk addım kimi Qərb ölkələrinin bu cür təşəbbüsü çox vacib idi. Könül istərdi ki, Ermənistan vasitəçilərə ehtiyac duymadan, hansısa şərt qoşmadan minalanmış ərazilərin xəritələrini Azərbaycana təhvil verərdi. Amma ermənilərin uzun illər ərzində formalaşmış psixoloji düşmənçilik və aqressiv mövqeyi bu məsələni ləngidir. Rusiya kənarda qalmamaq üçün təşəbbüsü öz əlinə aldı və ikinci mübadilə baş tutdu. Moskva ən azından anladı ki, üçtərəfli sazişə əməl etmək məcburiyyətindədir. Həm də Kreml ”bölgədə mən də varam” mesajını verdi. Sirr deyil ki, Rusiya Cənubi Qafqaza Qərb ölkələrinin nüfuz etməsində heç də maraqlı deyil. Əslində bu məsələdə fərqli mülahizələrin olması normaldır. Adətən, beynəlxalq hüquqi prosedurlardan xəbərsiz oluruq. Həm də bir az informasiya qıtlığı müşahidə olunmaqdadır. Belə hadisələr zamanı rəsmi qurumların ictimaiyyəti daha operativ və dolğun məlumatlandırması çox önəmlidir. Çünki belə mübadilələr dünya praktikasında mövcuddur.

**- Ermənilərdən alınan xəritələrlə bağlı ictimaiyyətdə birmənalı fikir yoxdur. Əksəriyyət xəritələrin doğruluğuna inanmır. Xəritələrdə yanlışlıq mümkündürmü?**

- Qarabağ ərazisi 28 il işğal altında olub və bölgənin demək olar ki, böyük hissəsi minalanıb. Ola bilsin, müəyyən ərazilərin minalanması tam sistemləşdirilməyib və xəritələr təşkil olunmayıb. O da bəllidir ki, ermənilər geri çəkilərkən, o cümlədən verilən vaxt ərzində əraziləri tərk edərkən xeyli mina basdırıblar. Böyük ehtimal minaları necə gəldi yerləşdiriblər. Xeyli tələ minalardan da istifadə olunub ki, ermənilər onların yerini bildirmək istəməzlər. Bütün hallarda xəritələrin olmaması özü ərazinin minalanmış olması yönündə ciddi dəlil-subut və erməni işğalçılığının etirafıdır. Ermənistanın siyasi riyakarlığı, düşmən münasibəti ortadadır. Məğlubiyyətinə baxmayaraq, hələ də cığallıqdan əl çəkmir. Rusiya, Fransa və başqa ölkələrə şikayət edir. Uzun illər yalançı, böhtançı, təcavüzkar siyasət yeritməsi Ermənistana haqlı olaraq Azərbaycan cəmiyyətində inamsızlıq yaradır. Hətta sülh müqaviləsindən sonra belə ermənilərə nə qədər güvəniləcəyi məsələsi qaranlıqdır. Ermənilər sadəcə Azərbaycan torpaqlarını işğal etməmişdilər, eyni zamanda bizə məxsus tarixi, mədəniyyəti də oğurlayaraq öz adlarına çıxmışdılar. Bu cür saxtakar topluma güvən duymamaq təbiidir.

**İsmayıl Qocayev**

**Elman Məmmədov: "Ərazilərə gizli və dolayı yollarla keçənlər çox sərt şəkildə cəzalandırılmalıdır"**

# Yenə mina partlayışı

## Vətəndaşlar hələ də qadağalara əməl etmirlər

### Füzulidə minaya düşənlərdən biri həlak olub, digəri ayağını itirib



**Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq işğaldan azad olunmuş ərazilərə qanunsuz yollarla ayrı-ayrı şəxslərin keçməyə cəhd göstərmələri hallarına hələ də rast gəlinir.**

Çox təəssüf ki, belə təhlükəli səfərlər həmin şəxslərin minaya düşərək ya həlak olmalarına, ya da ömürlük şikəst qalmalarına səbəb olur. Ötən gün Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, iyulun 8-də Füzuli rayon sakinləri Nuru Nuriyev və Elnur Həşimov nəzarət postlarından kənar qanunsuz yollarla rayonun işğaldan azad edilmiş Aşağı Əbdürəhmanlı kəndi istiqamətində piyada hərəkət edərkən minalanmış ərazidə piyada əleyhinə minaya düşərək ağır bədən xəsarəti alıblar. Onu da qeyd edək ki, minaya düşərək ağır bədən xəsarəti alan Nuru Nuriyev hələ fevral ayında işğaldan azad olunmuş əraziyə keçməyə cəhd göstərərkən polis əməkdaşları tərəfindən saxlanılmış və inzibati qaydada 30 sutka həbs olunmuşdu.

Füzuli rayonunun işğaldan azad edilmiş ərazilərinə qanunsuz gedərək minaya düşən şəxslərdən biri ölüb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov APA-ya bildirib ki, minaya düşənlərdən biri Nuru Nuriyev həlak olub: "Onun meyiti ərazidən çıxarılıb. Elnur Həşimov isə minaya düşməsi nəticəsində ayağını itirib. O ərazidən çıxarılaraq xəstəxanaya təhvil verilib".

**Mövzu ilə bağlı millət vəkili Elman Məmmədov "Şərq"ə fikirlərini bölüşüb. Deputat vurğulayıb ki, qanunvericiliyimizdə cəza tədbirləri ilə bağlı müvafiq maddələr öz əksini tapıb:** "Bilirsiniz ki, dövlətimizin başçısı və müvafiq qurumlar vətəndaşlarımıza bununla bağlı vaxtaşırı xəbərdarlıqlar edir. Dönə-dönə vətəndaşlarımıza qadağaları deyir. Bildirirlər ki, həyatınızı təhlükə qarşısında qoymayın. Bunun üçün icazə verilməyən və qadağan olunmuş ərazilərə səfərlər etməyin. Ancaq vətəndaş da öz məsuliyyətini dərk etməli və öz təhlükəsizliyinin qeydinə qalmalıdır. Buraxılış məntəqələrindən, postlardan kənar yerlərdən nə məqsədlə gizli yollarla bu ərazilərə keçirsən? Sən ilk növbədə düşünməlisən ki, bu ərazilər 30 ilə yaxın bir müddətdə düşmən işğalında olub. Düşmən burda sürpriz tələlər qoyub gedib. Minalar basdırıb. Təbii ki, artıq sənin burda həyatın heç bir şeydən sığortalanmayıb. Ağılsızlıq edib özünü ölümə düçar edirsən. Hesab edirəm ki, vətəndaşlarımız bu deyilənlərin, bu xəbərdarlıqların hamısından nəticə çıxartmalıdırlar. Ərazilərə gizli və dolayı yollarla keçənlər çox sərt şəkildə cəzalandırılmalıdır".

**Aynurə Pənahqızı**

---

**"Kənddə gələcək yetişdirənlər"**



**Gülnur Əliyeva: "Sinifdə nadinc, özünə qapanan şagirdlərlə işləmək bir az çətin olur"**

# "Bizim dövrə baxanda indi kənd məktəblərində təhsilə maraq böyükdür"

Bölgələrimizdə çalışan müəllimlərin fəaliyyəti, kənd yerlərində təhsilin səviyyəsi, tədris prosesinin çətin və zövqlü tərəfləri barədə "Kənddə gələcək yetişdirənlər" rubrikamız davam edir. Məlumdur ki, müəllimlik bütün ölkələrdə və cəmiyyətlərdə yüksək, şərəfli və ali peşələrdən biri sayılır. "Şərq" olaraq rayon və kəndlərdə çalışan müəllimlərlə həmsöhbət olub peşələrinin çətin, eyni zamanda şərəfli yönlərini, dərs zamanı istifadə etdikləri maraqlı metodları və yenilikləri öyrənməyə çalışdıq.

Rubrikamızın növbəti müsahibi Qazax rayon Alı Əliyev adına Hüseynbəyli kənd tam orta məktəbin fransız dili müəllimi Əliyeva Gülnur Nizami qızıdır. Gülnur xanım artıq 3 ildir ki, fransız dili müəllimi kimi çalışır.

**- Bu peşəni seçməyiniz öz istəyiniz idi, yoxsa ailənizdən, ya da kənardan hansısa məsləhətlər olmuşdu?**

- Düzü, universitetə hazırlaşarkən ancaq universitet olsun düşüncəsi ilə qərar verən abituriyentlərdən biri olmuşam, lakin zaman keçdikcə müəllimlik peşəsinə yiyələndiyim, şagirdlərlə işləmək kimi böyük bir imkanım olduğu üçün özümü şanslı biri və çox xoşbəxt hiss edirəm.

**- Hər bir peşənin çətin tərəfləri var. Bəs müəllimliyin çətinliyi nədir?**

- Şagirdlərlə işlədiyimiz üçün bir çox nadinc və ya özünə qapanan uşaqlarla rastlaşırıq. Bu zaman uşaqların nəyə görə nadinclik etdiyini, nə istədiklərini başa düşmək bir az çətin olur. Çünki valideynlərlə əlaqə saxlayıb övladlarının problemlərini öyrəndikdə bəzi valideynlər bizə yetərincə kömək etmirlər. Bu da problemin bir az gec həll olunmasına gətirib çıxarır. Amma çox şükür ki, sonunda hər şey yaxşılığa doğru gedir. Şagirdlərimi olduğu kimi sevirəm.

**- Kənddə təhsilə maraq hansı səviyyədədir?**

- Kənddə şagirdlər gələcəkdə təhsil alacağı ixtisasın olduğu qrupun fənlərinə daha çox maraq göstərirlər. Biz məktəbdə oxuduğumuz dövrə nisbətdə indi təhsilə maraq daha böyükdür.

**- Ailəlisiniz və 3 övladınız var. Ailə, uşaqlar və müəllimlik sizə çətinlik yaratmır ki?**

- İki övladım məktəbə, biri isə bağçaya gedir. Demək olar ki, hamımız evdən eyni vaxtda çıxır, eyni vaxtda da qayıdırıq. Mən məktəbdən gec gəldikdə isə nənələri yanlarında olur. Təhsilləri ilə sevə-sevə məşğul oluram. Çünki öyrədərkən həm də özüm öyrənirəm.

**- İxtisasınız fransız dili müəllimliyidir. Fərqli üsullardan, həvəsləndirici metodlardan istifadə edirsinizmi?**

- Bəli, edirəm. Əsasən oyunlardan istifadə edirəm, çünki bu vaxt şagirdlər əylənərək öyrənir. Həm də incəsənətə olan maraqları üzə çıxır.

**- Rayon və ya kənd yerində müəllim kimi işləməyin hansısa əziyyəti varmı?**

- Kənd məktəblərində bəzi üsullardan istifadə etmək üçün texniki çatışmazlıq olur, yəni şəhər məktəblərində olan şəraitin bir çoxu kənd məktəblərində yoxdur.

**- Bəzən yaşlı müəllimlər şagirdlər tərəfindən rəğbətlə qarşılanmır. Amma gənc müəllimlər xüsusilə azyaşlı şagirdlərin sevimlisi olur. Sizcə də belədirmi?**

- Yaşlı müəllimlərin rəğbətlə qarşılanmadığını deməzdim, amma gənc müəllimlərin azyaşlı şagirdlər tərəfindən sevilməsi fikri ilə razıyam. Lakin yuxarı sinif şagirdləri ilə gənc müəllimlərin arasında ilk illərdə çox vaxt bir-birini başa düşməmək problemi yaşanır. Təbii ki, nə vaxtsa şagird olduğunu xatırlayan müəllim bu problemi də həll edə bilir.

**- İstərdim bir az da kurrikulum sistemindən danışaq. Bu sistemi necə qiymətləndirirsiniz? Bəzi müəllimlər kurrikulumun çox mürəkkəb sistem olduğunu söyləyirlər...**

- Əslində, kurrikulum sistemi şagirdyönümlü olduğu üçün şagirdin cəmiyyətdə daha açıq fikirli bir şəxsiyyət kimi yetişməsinə imkan yaradır. Çətinliyi ondan ibarətdir ki, kurrikulum ilə tətbiq etdiyimiz bəzi üsullar şagirdlərin əksəriyyəti tərəfindən çətin qavranılır, xüsusilə ev tapşırıqlarında. Çünki bunun üçün onların şəraitləri yoxdur (internet kimi). Valideynlər də bizə dəstək versə, kurrikulum sistemi ilə keçirilən dərsdə biz cəmiyyətə daha özünə güvənən, intellektli, savadlı şagirdlər yetişdirərik. Niyə valideynlər dedim? Bir nümunə çəkim, bəzən dərsi musiqi ilə keçdikdə və təsadüfən bunu valideynlər gördükdə narazılıqları ilə rastlaşırıq ki, dərs keçirilmir. Bunun kurrikulumun tələbi olduğunu bildirdikdə onların ənənəvi təhsilə daha çox önəm verdiklərinin şahidi oluruq.



**"Bəzən dərsi musiqi ilə keçdikdə valideynlər narazılıq edirlər, deyirik ki, bu kurrikulumun tələbidir"**



**- Sizcə, xarici dil müəllimləri daha çox hansı səhvlərə yol verirlər?**

- Dərsdə Azərbaycan dilində danışığa çox yer verməklə ciddi yanlışlıq edirlər. Azərbaycan dilində mən də danışıram. Bəzən məcburuq uşağı başa salmaq üçün. Ancaq ayın tarixini də Azərbaycan dilində soruşmaq olmaz.

**- Son olaraq istərdim ki, həmkarlarınıza məsləhətləriniz varsa, qeyd edəsiz.**

- Şagirdləri dəcəllikləri, nadincliyi və ya sakitliyi ilə sevin, necə var sevin. Nəhayət, istədiyiniz kimi sizi sevən şagirdləriniz olacaq.

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

# Tbilisi siyasi və iqtisadi cəhətdən hələ hazır deyil



## *Gürcüstanın tezliklə Avropa İttifaqına tam hüquqlu üzv olması gözlənilmir*

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bildirib ki, Gürcüstan müasir çağırışlara rəğmən Avropa İttifaqının (Aİ) tam hüquqlu üzvü olacağına ümid edir. O bildirib ki, Gürcüstan əhalisinin 80 faizi avrointeqrasiya xəttini dəstəkləyir.

Qeyd edək ki, qonşu ölkə 2014-cü ildə Aİ ilə assosiativ saziş imzalayıb. 2017-ci ilin mart ayında isə Gürcüstan vətəndaşları şengen zonası ölkələrinə vizasız gediş-gəliş imkanı əldə ediblər.

**Politoloq Natiq Miri Gürcüstanın Aİ-yə inteqrasiyanın bölgəyə təsirlərini "Şərq"ə şərh edib. Analitik qeyd edib ki, Gürcüstan Cənubi Qafqaz bölgəsi üçün strateji və geosiyasi önəm daşıyır:** "Çünki Gürcüstan xristian ölkəsi olduğu üçün cəlbedicidir. Eyni zamanda Qara Dəniz hövzəsi ölkəsidir. Bu da Rusiyanın indiki vəziyyətdə Qara Dənizdə hərbi donanmasının hegemonluq iddiası qarşısında Gürcüstanın önəmini artırır. Gürcüstan Aİ və Qərb dünyası üçün önəmlidir. Ancaq yaxın zamanlarda Gürcüstanın bu ittifaqa bərabərhüquqlu üzv olacağını gözləmirəm. Birincisi, Gürcüstan islahatlar baxımından buna hazır deyil. Çünki ölkədə hələ də siyasi cəhətdən böyük çatışmazlıqlar var. Ölkə iqtisadi cəhətdən də Aİ-yə üzv olamağa hazır deyil. Eyni zamanda sözügedən təşkilatın xarici siyasəti var ki, bu da yaxın gələcəkdə Gürcüstan və Ukrayna kimi ölkələrin Aİ-yə qəbul edilməsinə hazır olmadığını göstərir. Bu gün aidiyyəti quruma prioritet olan xarici siyasət əsasən Balkan ölkələrinin ittifaqa üzv olmasıdır. Önə çıxan ölkələr Serbiya, Şimali Makedoniya, Bosniya-Hersoqovinadır. Bu ölkələrin Rusiya və regionda olan digər dövlətlərin geosiyasi maraqları çərçivəsinə düşməməsi üçün Aİ-yə üzvlüyü nəzərdə tutulur. Fikrimcə, məhz qeyd etdiyim Balkan ölkələri yaxın perspektivdə ittifaqa üzv olacaq. Gələcəkdə əlbəttə ki, Gürcüstanın da bu təşkilata üzv olmaq ehtimalı var. Təbii ki, bu, Gürcüstanın daxilində aparacağı ciddi islahatlarla bilavasitə əlaqəli olacaq".

**N.Miri hesab edir ki, Gürcüstanın adıçəkilən quruma üzvlüyü region üçün müəyyən üstünlüklər vəd edir:** "Çünki Qərb dünyası hələ də dünyada texnoloji inkişaf baxımından ən öndə gedən aparıcı məkan və dövlətlər birliyidir. Bu baxımdan Gürcüstanın Aİ-yə inteqrasiyası digər Cənubi Qafqaz ölkələrinə müəyyən mənada təsir edəcək. Bu, təkcə iqtisadi inkişafla bağlı deyil, demokratiya, insan hüquqlarının qorunması, humanitar və digər məsələlərlə bağlıdır. Gürcüstanın uzaq perspektivdə sözügedən quruma üzvlüyü Azərbaycan üçün vacibdir".

**Yeganə Bayramova**



## Ermənistanda ara qarışır

### Müstəntiqlər yalana məcbur edilirlər

**Ermənistanda XİN-lə hakimiyyət arasında qalmaqallı vəziyyətin hökm sürdüyü bir vaxtda ölkədə daha bir qurumda xaosun tüğyan etdiyi ortaya çıxıb.**

Bu barədə "Joxovurd" qəzeti yazıb. Nəşr Ermənistanın Hərbi İstintaq İdarəsində "istefa paradı"nın başladığını qeyd edib. Belə ki, erməni müstəntiqlər sözügedən sahədə minlərlə cinayət işlərinin olmasından və işlərə baxmağa çatdıra bilmədiklərindən şikayət edirlər. Ölkədə hərb sahəsində istintaqların aparılması tapşırılan müstəntiqlər kütləvi şəkildə istefa verərək prokurorluq orqanlarına keçirlər.

"Onlar hərbi sahədəki işləri araşdırmağa çatdırmadıqları üçün "daha sakit və rahat" işə - prokurorluq orqanlarında çalışmağa meyl edirlər", - deyə nəşr qeyd edib.

**Tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov düşmən ölkədəki mövcud vəziyyəti "Şərq"ə şərh edib:** "Görünür, həmin müstəntiqlər yalan danışmağa, vəzifə səlahiyyətlərini aşmağa məcbur edilirlər. Lakin bu, Paşinyan hakimiyyətinə təhdid kimi qiymətləndirilməməlidir. Həmin məmurlar başqaları ilə- yalan danışa bilənlərlə əvəzlənəcəklər. Fikrimcə, müstəntiqlərin də hansısa tələbi yoxdur. Əks halda həmkarlar ittifaqı vasitəsilə çağırış, xəbərdarlıq edərdilər".

**Kənan**

# "Taliban"ın arxasındakı qüvvə yenə Amerikadır

## *KTMT-nin Əfqanıstandakı proseslərə müdaxiləsi mümkün deyil*

Əfqanıstanda vəziyyət çox sürətlə pisləşir. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Moskvanın KTMT-dəki öhdəliklərinin tam qüvvədə qaldığını vurğulayaraq deyib ki, Moskva Tacikistan-Əfqanıstan sərhədindəki hərbi bazasından istifadə də daxil olmaqla, KTMT-dəki müttəfiqlərinə qarşı təcavüzü dayandırmaq üçün hər şeyi edəcək. XİN rəhbəri KTMT nümayəndələrinin artıq sərhəd bölgəsini ziyarət etdiklərini bildirib. Maraqlıdır, KTMT hansı hallarda Əfqanıstandakı proseslərə müdaxilə edə bilər?

Sualımızı cavablandıran siyasi-şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında vurğulayıb ki, ABŞ və NATO qüvvələrinin Əfqanıstandan çıxmasının ardınca Türkiyənin hərbi qüvvələrinin bu ölkədə qalacağı açıqlandı. Politoloq qeyd edib ki, lakin bununla belə ABŞ və NATO-nun yoxluğundan "Taliban" son zamanlar çox sürətlə istifadə edir: "Artıq "Taliban" ard-arda bir neçə rayona nəzarəti ələ keçirib. Əfqanıstandakı proses yeni geosiyasi vəziyyətin yaranmasına gətirib çıxarır. Xüsusilə də bu geosiyasətin Mərkəzi Asiya ilə bağlı olduğunu demək mümkündür. Məsələ ondadır ki, ABŞ Çinin "Bir kəmər, bir yol" layihəsinin qarşısını almaq üçün Əfqanıstanda "Taliban"dan istifadə etməyi düşünür. Yəni "Taliban"a Əfqanıstanı güzəştə gedərək "Taliban"ın mövcud radikal islamçı qüvvələrini və ideoloqlarını Mərkəzi Asiyaya, türk dövlətlərində, eyni zamanda Çinin Uyğur, Sincal vilayətində istifadə etməyə çalışır. Bununla ABŞ türk ölkələrinin, həmçinin KTMT ölkəsi olan türk ölkələrinin, eyni zamanda Çinin daxilindəki müsəlman uyğurları radikal islamçılığa göndərərək Çinin "Bir kəmər, bir yol" layihəsinin qarşısını almağa çalışır. Təbii ki, proseslərdən Rusiya xəbərdardır. Rusiya tərəfi bir müddət idi ki, səssizliyini qorumuşdu. Xüsusilə də Qırğızıstan-Tacikistan sərhədində baş verən hadisələrin fonunda biz bunu gördük. Lakin indi başa düşmək olur ki, Rusiyanın bu səssizliyi sadəcə prosesi müşahidə etmək və prosesin real vəziyyətini, yəni nəyi ehtiva etdiyini anlamaq üçün hesablanmışdı. Bildiyiniz kimi, Əfqanıstan məsələsi Rusiya üçün çox həssas mövzudur. Çünki Əfqanıstan eyni zamanda Mərkəzi Asiyanın qapısı hesab olunur. Yəni bu ölkədən Mərkəzi Asiyaya müdaxilə edil-



məsi çox rahatdır. Buna görə də Rusiya KTMT-nin üzərinə düşərək, xüsusilə Mərkəzi Asiya ölkələrinin yaxın müddət ərzində baş nazirlər səviyyəsində bir görüş keçirməyi də planlaşdırır".

**T.Rzayev əlavə edib ki, KTMT-dən Əfqanıstana hər hansısa müdaxilə ediləcəyini düşünmürəm:** "Çünki Rusiya Əfqanıstanda, daha doğrusu, SSRİ Əfqanıstanda bir dəfə çox pis məğlubiyyətə uğradı. Və bu məğlubiyyətin cəzasını onlar SSRİ-nin dağılması ilə ödədilər. İndiki halda da Qərbin və ABŞ-ın iqtisadi sanksiyaları Rusiya iqtisadiyyatına ciddi zərər vurub. İqtisadi baxımdan zəifləyən Rusiyanın indiki halda belə bir aktiv hərbi toqquşmaya girməsi mümkün deyil. Düzdür, təkcə Rusiya deyil, digər ölkələrin də birbaşa Əfqanıstana müdaxilə etməsi və "Taliban"la burada mübarizə aparması real səslənmir. Çünki Rusiyanın indiki halda belə bir hərbi əməliyyat üçün kifayət qədər hərbi büdcəsi yoxdur. Bu, Liviya, Suriya deyil. Bura Əfqanıstandır. Əfqanıstan isə bataqlıq kimi bir yerdir. Yəni Əfqanıstan bir dəfə bataqlığında SSRİ-ni məhv etdi, ikinci dəfə də Rusiya buna bənzər sonluğa düşə bilər. Yəni əgər KTMT Əfqanıstana müdaxilə edərsə, SSRİ-nin başına gələn onun da başına gələcək. Yəni KTMT burada pis məğlubiyyətə uğraya bilər. Rusiya da bunu yaxşı bilir. Buna görə də ilkin olaraq Qırğızıstan və Tacikistan sərhədində KTMT qüvvələri cəmləşdiriləcək. Buradan Mərkəzi Asiyaya keçmək istəyən "Taliban"ın ideoloqları və militanlarının qarşısı alınacaq. Son günlərdə ABŞ tərəfi Əfqanıstandakı 4-5 minə yaxın qaçqının Mərkəzi Asiya ölkələrinə keçirilməsi istəyini bildirib. Burda səbəb aydındır. ABŞ istənilən variantda "Taliban"ın ideoloqlarını və militanlarını Mərkəzi Asiyaya keçirmək və burada özü üçün radikal islamçılığı ayağa qaldırmaq istəyir. Yəni deyə bilərik ki, situasiyada, yəni Mərkəzi Asiya baharının şahidi ola bilərik. Hətta biz onu Mərkəzi Asiya xəzanı belə adlandıra bilərik".

**Analitik diqqətə çatdırıb ki, əgər KTMT-də lazımi tədbirlər alınmasa, payıza doğru biz artıq Mərkəzi Asiyada radikal islamçılığın yüksəlməsini görə bilərik:** "Təbii ki, belə hal baş verəcəyi təqdirdə onun arxasında "Taliban" və dəstəkçi ABŞ duracaq. Belə qənaətə gələ bilərik ki, Rusiyanın Əfqanıstana indiki halda müdaxiləsi mümkün deyil. Bəs KTMT Əfqanıstandakı proseslərə müdaxilə edə bilərmi? Onun da indiki halda mümkün deyil. Çünki indiki halda KTMT ölkələri kağız üzərində ittifaq olsa da, hələ ki, onun lokal bir müharibədə iştirak etməsini müşahidə etməmişik".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Azərbaycandakı tibb kolleclərinin diplomu Türkiyədə tanınacaq

*"Bu, çox müsbət hadisə olardı. Tibb işçiləri, tibb bacılarının təkmilləşməsinə, ixtisaslarını artırmalarına böyük ehtiyac var"*



Rəsmi Bakı və Ankaranın iqtisadi əməkdaşlığına dair Fəaliyyət Planı elm və təhsil sahəsini də əhatə edir. Fəaliyyət Planında əksini tapan məsələlərdən biri Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsidir. Sənədə əsasən, 2021-ci ildə Azərbaycanda fəaliyyət göstərən 1 nömrəli Bakı Tibb Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci və Sumqayıt Tibb Kollecinin diplomalarının Türkiyənin Milli Təhsil Nazirliyi tərəfindən peşə orta təhsili çərçivəsində qiymətləndirməsi üçün danışıqlar aparılacaq.

Bu işlərin həyata keçirilməsi Azərbaycan və Türkiyənin Təhsil nazirliklərinə tapşırılıb. Bundan başqa Türkiyə Maarif Vəqfinin Azərbaycanda təhsil fəaliyyətinə başlaması işləri də sürətləndirilir. Bu da iqtisadi əməkdaşlığa dair Fəaliyyət Planında əks olunub. Sənəddə qeyd edilib ki, 2021-2022-ci illərdə Türkiyə Maarif Vəqfinin Azərbaycanda təhsil fəaliyyətlərinə başlaya bilməsi üçün Anlaşma Memorandumunun imzalanması sürətləndiriləcək. Türkiyə Maarif Vəqfinin fəaliyyətlərini, imtiyaz və istisnalarını tənzimləyəcək hökumətlərarası sənəd layihəsi diplomatik kanallar vasitəsi ilə Azərbaycan tərəfinə təqdim ediləcək. Elm-təhsil istiqamətində əməkdaşlıq çərçivəsində Azərbaycan və Türkiyə Məzunlar Dərnəyinin qurulması da planlaşdırılır. Sənəddə qeyd edilib ki, 2021-2022-ci illərdə qarşılıqlı olaraq hər iki ölkədə ali təhsil müəssisələrinin məzunların dərnəklərinin qurulması təşviq ediləcək. Bu işlərin həyata keçirilməsi Azərbaycan tərəfdən Təhsil Nazirliyinə, Türkiyə tərəfdən isə Xaricdə Yaşayan Türklər və Əqraba Topluluklar Başqanlığına (YTB) tapşırılıb. Qeyd edilir ki, Azərbaycanla Türkiyə arasında təhsil sahəsində müzakirələr bundan sonra da davam etdiriləcək.

**Qardaş Türkiyədə tibbi təhsil almış həkim-ginekoloq Fəxranə Hüseynzadə "Şərq"ə açıqlamasında ölkəmizdə fəaliyyət göstərən tibb kolleclərinin diplomlarının peşə təhsili çərçivəsində tanınmasının böyük üstünlüklər yaradacağını qeyd edib:**

- Bizim tibb kolleclərinin diplomları qardaş Türkiyədə tanınarsa, bu, çox əla olar. Məlum məsələdir ki, Türkiyədə tibb təhsili yüksək səviyyədə inkişaf edib. İstər həkimlik, istərsə də orta tibb işçisi ixtisasları Türkiyədə yüksək səviyyədə tədris olunur, nəzəriyyə hansı dərəcədə tədris olunursa, təcrübə də bir o qədər üst səviyyədə keçilir. İstənilən ixtisasda nəzəriyyə və təcrübə - hər ikisi də vacibdir. Bir sahəni bilib, digərini gözardı etmək qətiyyən yolverilməzdir. Türkiyə tibb təhsilində hər iki sahə də yüksək səviyyədədir. Təəssüf doğuran budur ki, Azərbaycan Dövlət Tibb Universitetinin diplomları Türkiyədə tanınmır. Amma Türkiyə ali məktəblərinin tibb fakültələrinin diplomları burada tanınır, həkimləri işə qəbul edilir. Azərbaycanda tam tibb təhsili almış məzun Türkiyədə ümumi diplomların təsdiqi, həmçinin uzmanlıq imtahanı verib müvəffəq nəticə əldə etdikdə işə qəbul edilir. İmtahansız bu, mümkün deyil. Belə olan halda tibb kolleclərinin sənədinin Türkiyədə tanınması, əlbəttə, çox sevindirici, müsbət hal olardı. Diplomların kollec təhsilindən başlanması məqsədəuyğun görünür. Kolleclər tibb təhsilinin ilk pilləsi də hesab edilə bilər. Çünki burada orta tibb işçisi ixtisasına yiyələnirlər. Orta tibb işçisi yüksək səviyyədə təhsil alarsa, təhsilini ali tibb xidməti - həkimlik ixtisası üzrə davam etdirə bilər. Adətən həkimlərin yüksək tibb təhsili almasına diqqət edilir. Amma sizə deməliyəm ki, yüksək bilikli, savadlı orta tibb işçilərinə, tibb bacılarına böyük ehtiyac var. Həkimin yanında yüksək ixtisaslı orta tibb işçisinin olması həmin həkim üçün, ümimilikdə tibb sahəsi üçün böyük üstünlükdür. Həkimin hərəkətləri, qərarları çox zaman tibb bacılarından, tibb işçilərindən də asılı olur. Yüksək ixtisaslı, peşəkar həkimlər həmişə bilikli, bacarıqlı tibb işçisi axtarırlar, belə bir köməkçiləri olmalarını arzu edirlər. Bu baxımdan hesab edirəm ki, Azərbaycandakı tibb kolleclərinin diplomlarının Türkiyədə tanınması istiqamətində addımların atılması vacibdir. Bu, çox müsbət hadisə olardı. Tibb işçiləri, tibb bacılarının təkmilləşməsinə, ixtisaslarını artırmalarına böyük ehtiyac var. Orta tibb işçisinin, eləcə də həkimlərin dientologiya elmini öyrənmələri də vacibdir. Bu, həkim-pasiyent, həkim-tibb bacısı, tibb bacısı-pasiyent arasında davranış, ünsiyyət qaydalarıdır. Tibb sahəsində çalışanlar ilk növbədə bunu öyrənməlidirlər. Bizdə tibbin bu bölməsi də zəif tədris olunur. Arzu edərdim ki, Türkiyə ilə elm-təhsil sahəsində əməkdaşlıq çərçivəsində bu sahənin öyrənilməsinə də diqqət artırılsın.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İki ölkə arasında tələbə mübadiləsi sürətlənəcək

*Azərbaycan və Türkiyə Məzunlar Dərnəyinin qurulması müsbət haldır*



Azərbaycan və Türkiyə Məzunlar Dərnəyinin qurulması istiqamətində işlər davam etdirilir. Bu barədə Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığına dair fəaliyyət planında əks olunub. Sənəddə qeyd edilib ki, 2021-2022-ci illərdə qarşılıqlı olaraq hər iki ölkədə ali təhsil müəssisələrinin məzunların dərnəklərinin qurulması təşviq ediləcək.

Bu işlərin həyata keçirilməsi Azərbaycan tərəfdən Təhsil Nazirliyinə, Türkiyə tərəfdən isə Xaricdə Yaşayan Türklər və Əqraba Topluluklar Başqanlığına (YTB) tapşırılıb.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Kamran Əsədov bildirib ki, azərbaycanlı tələbələrin sayı Türkiyədə 21 min nəfərdir. Təhsil eksperti qeyd edib ki, bu, kifayət qədər ciddi rəqəmdir:** "Etiraf edək ki, bir çox hallarda xarici ölkələrdə təhsil almağa gedən bizim abituriyentlərimiz orada ciddi problemlər yaşayırlar. Bu problemlər yaşayış yerinin müəyyənləşdirilməsi, yəni ev və ya yurdlarda qalma, həmin ərazilərlə bağlı uyğunlaşma ilə əlaqədardır. Yəni bu sahədə müəyyən çətinliklər çəkirlər. Azərbaycan və Türkiyə Məzunlar Dərnəyinin olması çox mühümdür. Çünki ən azından Türkiyədə təhsilini başa vurmuş şəxslər bu dərnək vasitəsilə gələcəkdə Türkiyəyə oxumağa gedənlərə məlumat verəcək. Təbii ki, bu, kifayət qədər yaxşı bir haldır".

**K.Əsədov əlavə edib ki, digər tərəfdən Azərbaycan və Türkiyə Məzunları Dərnəyi Türkiyədəki müsbət təcrübənin Azərbaycanda da yayılmasına gətirib çıxaracaq:** "Ümumiyyətlə, hazırda Türkiyədə 21 min azərbaycanlı, Azərbaycanda isə 1600 yaxın türkiyəli tələbə təhsil alır. Belə deyək ki, bu dərnək iki ölkə arasında tələbə mübadiləsini də sürətləndirəcək. Həmçinin, əvvəlki illərdə məzun olmuş şəxslər təhsil müddətlərində qarşılaşdıqları problemlərin birbaşa bu dərnək vasitəsilə həllinə çalışacaqlar. Ümumilikdə isə dünya təcrübəsində bu tipli məzun dərnəkləri ölkələr arasında inteqrasiyaya, təhsilin inkişafına, təhsilin əlçatanlığına ciddi şəkildə müsbət təsir göstərir".

**Aynurə Pənahqızı**

# Reytinqimiz yüksəlir



*Azərbaycan vətəndaşları dünyanın 68 ölkəsinə vizasız səfər edə bilərlər*

Beynəlxalq "Henley&Partners" konsaltinq şirkətinin Pasport İndeksində bildirilir ki, Azərbaycan vətəndaşlarının 68 ölkəni ziyarət etməsi üçün vizaya ehtiyacı yoxdur. Şirkətin hazırladığı hesabatda ümumilikdə 116 ölkə yer alıb. Hazırlanan hesabatda ilk yerdə Yaponiya qərarlaşıb. Belə ki, bu ölkənin vətəndaşları dünyanın 193 ölkəsinə vizasız gedə bilər.

İlk onluqda Sinqapur (192 ölkə), Cənubi Koreya (191 ölkə), Almaniya (191 ölkə), İtaliya (190 ölkə), Finlandiya (190 ölkə), İspaniya (190 ölkə), Lüksemburq (190 ölkə), Danimarka (189 ölkə) və Avstriya (189 ölkə) ölkələridir. Azərbaycan isə Pasportlar İndeksində 80-ci yerdədir. Belə ki, Azərbaycan vətəndaşları dünyanın 68 ölkəsinə vizasız səfər edə bilərlər. Qonşu ölkələrdən Türkiyə 56-cı (111 ölkə), Rusiya 51-ci (119 ölkə), Ermənistan 84-cü (64 ölkə), Gürcüstan 54-cü yerdə (116 ölkə) qərarlaşıb. Siyahıda sonuncu yerdə Əfqanıstandır. Bu ölkənin vətəndaşları 26 ölkəyə vizasız getmək imkanına malikdirlər. Göründüyü kimi, ötən ildə olduğu kimi, bu il də yapon pasportu indeksdə hələ də birinci yerdədir, yəni xarici vətəndaşların Yaponiyaya girişinə qoyulan qadağaya baxmayaraq, dünyanın 193 ölkəsinin sərhədləri Yaponiya vətəndaşları üçün açıqdır. Qeyd edək ki, Pasport İndeksi beynəlxalq münasibətləri və ölkələrin dünya arenasındakı vəziyyətini əks etdirən, vətəndaşların sərbəst hərəkət etmə azadlığı baxımından ölkələrin ilk beynəlxalq reytinqidir. 2018-ci ildən bəri ölkələrin vizasız rejimindəki dəyişikliklər barədə operativ məlumat vermək üçün Pasport İndeksi hər rübdə bir dəfə yenilənir.

**Azərbaycanın mövqelərinin ilbəil yaxşılaşması hökumətin pasportumuzun mövqeyini gücləndirməyi hədəf aldığını göstərir**

**Mövzu ilə bağlı Avrasiya Miqrasiya Təşəbbüsləri Platformasının rəhbəri, fəlsəfə doktoru Azər Allahverənov "Şərq"ə açıqlamasında bildirib ki, reytinqi tərtib edərkən dünya vətəndaşlığı indeksinin müəllifləri hər biri bir insanın həyatına təsir edən bir çox faktoru nəzərə alıblar.** O qeyd edib ki, bunlardan daxili və xarici olaraq bölünə bilən yeddi faktor müəyyən edilib: "Birinci qrupa iqtisadiyyatın miqyası, insan inkişafı, ictimai asayiş və sabitlik, ikincisinə, yaşayış və turizm üçün mövcud olan ölkələrin sayı, eləcə də inkişaf səviyyəsi daxildir".

*A.Allahverənov qeyd edib ki, Azərbaycan üçün bu göstərici normal sayılır:* "Artıq bəlli məsələdir ki, bu gün Azərbaycan vətəndaşlarının 68 ölkəyə ziyarət etməsi üçün vizaya ehtiyacı yoxdur. Əslində orda 68 ölkə deyiləndə iki komponent nəzərdə tutulur. Birincisi, 32 ölkəyə ümumiyyətlə, viza tələb olunmur. Amma 36 ölkədə viza daxil olanda verilir. Keçən il bu göstərici 66 olub, ondan əvvəlki ildə isə 64 olub. Yəni nəticə etibarilə ölkələrin sayı artıb və təbii ki, bu, yaxşı göstəricidir. O ki qaldı 80-ci yerdə qərarlaşma, burda indi bir məsələ var. Baxır buna hansı kontekstdə yanaşırıq. Məsələn, burda göstərilir ki, bu qiymətləndirmə 116 ölkə arasında aparılıb. Təbii ki, burada qiymətləndirmə bir sıra meyarlar əsasında aparılır. Orda ola bilsin ki, yerdəyişmələr olsun. "Henley&Partners" konsaltinq şirkətinin apardığı bütün ölkələr üzrə qiymətləndirmədə bir sıra ölkələr iştirak etməmiş də ola bilər. Çünki bilirsiniz ki, pandemiya baş verdi və ölkələr sərhədlərini indi də qismən bağlayıblar. Burda bir nüans da var. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasında yeni nəsil şəxsiyyət vəsiqəsi ilə gediş-gəliş mümkün olacaq. Artıq səhərisi günü digər ölkələrlə də bu cür gediş-gəliş mümkün olarsa, o zaman təbii ki, pasport reytinqinə hardasa müəyyən mənada təsir göstərə bilər. Çünki tək buna Azərbaycan deyil, digər ölkələr də gedir. Yəni nəticə etibarilə ümumi vətəndaşlıq pasportları hansısa pozisiyalarda öz mövqelərini şəxsiyyət vəsiqələrinin hesabına uduza bilər. Təbii ki, bu da reytinqdə öz təsirini göstərən bir haldır. İstənilən halda bu çox interaktiv bir qiymətləndirmədir".

**Mütəxəssisin fikrincə, bu gün pasportlarının "gücü" ilə maraqlanan ölkələr arasında yüksək göstərici hüququ üçün bir növ rəqabət gedir:** "Bu səbəbdən ilk üç və ilk beş lider davamlı olaraq dəyişir. Ölkəmiz hələ bu yarışda iştirak etmir, lakin buna baxmayaraq, Azərbaycanın mövqelərinin ilbəil yaxşılaşması hökumətin pasportumuzun mövqeyini gücləndirməyi hədəf aldığını göstərir. Çalışırıq ki, vətəndaşlarımızın vizasız daxil ola biləcəyi və ya onları almaq üçün sadələşdirilmiş sistemdən istifadə edə biləcəyi ölkələrin sayı çox olsun".

**Aynurə Pənahqızı**



## Avropa İttifaqı İrəvana 1,5 milyard dollar ayırıb

Bir sözlə, Ermənistanda Rusiya üçün geri sayım başlayır

**"Avropa İttifaqının Şərq tərəfdaşlığı üzrə Ermənistana 1,5 miyard dollar ayırması, bu ölkənin Rusiyanın təsir dairəsindən çıxmasına hesablanıb".**

Bu sözləri "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, bu vəsait Ermənistana anti-Rusiya isteriyasının davam etməsinə və bu ölkənin KTMT, Avrasiya İttifaqından çıxmasına zəmin yaradılması üçündür: "Əgər "Qarabağ klanı" hakimiyyətə gəlsəydi, bu vəsait ayrılmayacaqdı. Bundan sonra Avropa İttifaqı Ermənistanda Rusiyanın nəzarətində olan müəssisələrin geri alınması siyasəti üçün Yerevana dəstək verəcək. Nikol Paşinyan orduda Rusiyaya yaxın generalları uzaqlaşdırır. Proses bütün sferada davam edərsə, iqtisadiyyatda da Moskvaya qarşı mövqe ortaya qoyulacaq. Paşinyan öz hakimiyyətini gücləndirdikdən sonra Ermənistandakı Rusiya hərbi bazasının bağlanmasını tələb edə bilər. Bir sözlə, Ermənistanda Rusiya üçün geri sayım başlayır. Rusiyanın Ermənistanda mövqelərinin zəifləməsi regionda ümumi təhlükəsizliyə xidmət edəcək. Bundan əlavə, Paşinyanın Qərbə yönəlməsi və Moskvadan uzaqlaşması Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasını tezləşdirə bilər".

**İsmayıl**

# Dolların möhkəmlənməsi neft bazarına təsir edir

*İstənilən halda prioritet neft gəlirlərindən asılılığı minimumlaşdırmaqdır*

OPEC+ alyansının ötəngünkü iclasında yenidən qarışıq qərarlarla günü bitirməsi və qeyri-müəyyənlik neftin qiymətlərini yenidən təzyiq altına salıb. Fyuçerslər üzrə satılan neftlərin qiymətləri startdaca ucuzlaşmağa başlayıb. Ötən gün axşam keçirilən hərraclar zamanı "Brent" markalı neftin sentyabr fyüçersləri 1,94 faiz ucuzlaşaraq 75,66 ABŞ dollarından, "WTI" markalı neftin avqust fyuçersləri isə 0,86 faiz ucuzlaşaraq 74,51 dollardan satılıb.

Hərrac zamanı həmin markaların qiyməti müvafiq olaraq 75,45-77,83 dollar və 74,2-76,98 dollar arasında dəyişib. Ekspertlər arasında qarşıdakı dövrdə neftin 100 dollara və daha baha qiymətə satılacağını düşünənlər var. Digər tərəfdən isə qiymətlərin ifrat dərəcədə artması nəticəsində tələbatın kəskin azalacağını, bununla da bazardakı qiymətlərin nisbətən normal səviyyəyə qayıdacağını bildirənlər var. Bununla yanaşı, OPEC+ formatının dağılacağını, iştirakçı ölkələrin neft hasilatı və ixracatı məsələlərini özbaşına həll etməyə başlayacağı fikri də irəli sürülür. İqtisadiyyatın dirçəldiyi bir vaxtda neftin bahalaşmasının kəskin inflyasiyaya səbəb ola biləcəyi, neftə tələbatın səngiyəcəyi də qeyd olunur. İnkişaf etmiş ölkələrin OPEC+ formatının iştirakçı ölkələrinə qarşı hasilatı artırmaları üçün təzyiqlər göstərəcəyi istisna edilmir.



**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov vurğulayıb ki, "OPEC+ Alyansında müşahidə edilən bu kimi fikir ayrılıqları neftin qiymətinə təsirsiz ötüşməyib:** "Bu həftəyə hər bareli üçün 77 dollar qiyməti ilə start verən Brent markalı neftin qiyməti 73 dollaradək azalıb. Bu, neftin qiymətində son 3 gündə 5 faizdən çox azalma deməkdir. Digər tərəfdən, ABŞ dollarının dünya valyuta bazarında möhkəmlənməsi də strateji məhsulların, o cümlədən neftin qiymətinə təsir göstərir. Son 1 ayda dollar avroya nisbətən 4 faizə yaxın dəyər qazanıb. Möhkəm dollar da neft bazarına təsir etməkdədir".

V.Bayramlı bildirib ki, OPEC+ Alyansının gələcək taleyi neftin qiymətinin dəyişməsinə birbaşa təsir edəcək. Doğrudur, qlobal vaksinasiya səviyyəsinin genişlənməsi, yay aylarında inkişaf etmiş ölkələrdə, xüsusən də Birləşmiş Ştatlarda daxili səfərlər səbəbindən benzinə tələbin artması enerji bazarında qiymətlərin xeyrinə işləyən mövsümi faktorlardandır. Amma bütün hallarda neft bazarında volatilliyin davam edəcəyi şübhəsizdir.

**Deputat vurğulayıb ki, enerji məhsulları ixrac edən əksər ölkələr və eləcə də Azərbaycan üçün neft bazarındakı stabillik valyuta daxilolmalarının optimallığı baxımından vacibdir:** "Əksər neft ölkələri üçün 1 barel neftin qiymətinin 75-80 dollar intervalında stabilləşməsi iqtisadi baxımdan məqbul hesab olunur. Amma neftin qiyməti yalnız iqtisadi deyil, eyni zamanda siyasi faktorlardan asılı olduğundan istənilən zaman bazarda sıçrayışlar istisna edilmir. Neft bazarındakı son volatillik bir daha təsdiq edir ki, enerji resursları ilə zəngin ölkələr üçün güclü qeyri-neft sektoru formalaşdırmaq alternativsizdir. Prioritet də neft gəlirlərindən asılılığı minimumlaşdırmaqdır".

**Aynurə Pənahqızı**



## Övlad dünyaya gətirmək ali bir hissdi

Aygün Muradxanlı: "Onu zibilliyə atan insan isə bütün mənəvi keyfiyyətlərini itirmiş adamdır"

**Sumqayıtda zibillikdən tapılan yeni doğulmuş qız uşağı ilə bağlı yayılan xəbərlər cəmiyyəti sarsıdıb. Bu iyrənc və insanlıqdan kənar davranış hamının təpkisinə səbəb oldu.**

Artıq neçənci dəfədir ki, belə hallarla qarşılaşırıq. Lakin yaxşılığa doğru dəyişən bir şey yoxdur.

Qeyd edək ki, hadisə şəhərin "Yaşıldərə" yaşayış massivində qeydə alınıb. Sakinlərdən biri zibil atarkən səs eşidib və orada yeni doğulmuş qız uşağının olduğunu görüb. O, polisə müraciət edib və yeni doğulmuş körpə Sumqayıt Təcili Tibbi Yardım Stansiyasının həkimləri tərəfindən Perinatal Mərkəzə yerləşdirilib. Mərkəzdən bildirib ki, körpə hamiləliyin 30-35 həftəliyində doğulub:

"Boyu 40 santimetr, çəkisi 1,660 kiloqramdır. Körpənin vəziyyəti orta ağırdır. Onun müalicəsi yeni və yarımçıq doğulmuşlar şöbəsində aparılır".

Baş verənləri "Şərq"ə dəyərləndirən jurnalist Aygün Muradxanlı bildirib ki, bütün bunlar əxlaq məsələsidir:

"Övlad dünyaya gətirmək ali bir hissdir. Onu zibilliyə atan insan isə bütün mənəvi keyfiyyətlərini itirmiş adamdır. Bunu edən şəxs haqqında nə deyəsən axı? Belə insanları cəzalandırmaqla yanaşı problemin sosioloji köklərini axtarıb tapmaq lazımdır. Aydındır ki, uşaq normal bir ailədə böyüyən insanların övladı deyil.

Səfil həyat keçirən insanların işidir bu. Milli gəlirlərin korrupsiya və rüşvət üzündən bərabər bölüşdürülmədiyi toplumlarda bu, sıradan həyat hadisəsidir".

**Yeganə Bayramova**

# Məhsul bol olarsa, kəndlinin üzü gülər

*Ona görə kəndliyə torpaq da, pul da, məsləhət də vermək lazımdır*



Azərbaycanda son vaxtlar statistik göstəricilər onu göstərir ki, pandemiya kənd təsərrüfatına bir o qədər də mənfi təsir göstərməyib. Belə ki, ölkəmizdə 2020-ci ilin yanvar-may ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 2165,1 milyon manat təşkil edib ki, onun da 1721,9 milyon manatı heyvandarlıq, 443,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,6 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 5,3 faiz artıb.

Ancaq nəzərə alaq ki, bir sıra dövlətlər tərəfindən, xüsusən də Rusiya tərəfindən kənd təsərrüfatına bu il qoyulan sanksiyalar fermerlərə ciddi ziyan vurub. Çünki onların məhsulları bu səbəbdən dəfələrlə sərhədlərdə qaldı və istifadəyə yararsız hala düşdü. Həmçinin bu il rayonlarda baş verən təbii fəlakətlər, daşqınlar da kənd təsərrüfatı məhsullarına ciddi mənfi təsir edib. Bəs Azərbaycan gələcəkdə ciddi şəkildə qida təhlükəsi ilə qarşılaşa bilərmi?

**Sualımızı cavablandıran iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda kənd təsərrüfat məhsullarının xarici, xüsusən də Rusiya bazarına çıxması, siyasətlə bağlıdır. Yəni münasibət yaxşıdırsa, sərhəddə problem yaşanmır:** "Gömrükdə də bəzən süni maneələr yaranır. Amma bunu ümumi plana aid etmək düz deyil. Sahibkarlar qeyd edirlər ki, Azərbaycan hökuməti Rusiya ilə danışıqlar apardıqdan sonra, gözləmələrin sayı azaldı. Bildiyiniz kimi, Azərbaycan Ermənistandan fərqli olaraq müstəqil siyasət yürüdür. Bu baxımdan bizim Rusiya ilə olan ticarət əlaqələri geniş şaxəli olsa da, bu, daxili baxımdan Rusiyada bəzi qüvvələrə sərf etmir. Onlarda təzyiq vasitəsi kimi, idxal olunan pomidorlarda hər hansısa xəstəlik tapırlar və ya Gömrük postunun gün ərzində bu qədər mal keçməsi üçün nəzərdə tutulmadığını qeyd edirlər. Düzdür, pomidorda xəstəlik ola bilər. Amma bu, kütləvi formada bütün məhsullara təsir etməməlidir. Ölkədə Kənd Təsərrüfatı İnstitutu dərin köklərə malikdir, amma tam formalaşmayıb. Məsələ proqnoz baxımdandır. Düzdür, kəndliyə nə əkməyi əmr edə bilməzsən. Amma sən araşdırma aparıb təxmin edə bilərsən ki, bu il bu məhsulların çox əkilməsi kəndli üçün ziyan olacaq. Əgər sənin qeydin düz çıxsa, artıq kəndlidə sənə qarşı inam yaranacaq. Onlar da məcbur olub, kənd təsərrüfatı sahəsində ixtisaslaşmış institutların mövqelərini nəzərə alacaqlar".

*İqtisadçı vurğulayıb ki, ölkədə kredit siyasəti düzgün qurulmayıb:* "Hesab edirəm ki, hökumət institutları gəlib torpağın tərkibindən nümunə götürüb kəndliyə deməlidir. Yəni kəndli bilməlidir ki, həyətyanı sahəsinin sağ hissəsində kartof, sol hissəsində kələm, kök və s. əksə daha çox xeyir götürəcək. Bu baxımdan da artıq kəndli rahat şəkildə, xərcə düşmədən öz işini görə biləcək. Bunun üçün dövlət ona kredit verir, gəlirin olması üçün pulsuz mütəxəssislərlə təmin edir. Nəticədə nə baş verir, kəndli ziyana düşmür. Dövlət bundan xeyir götürür. Bəzən kəndlidə çatışmayan bir cəhət var. Məsələn, 20 ildir torpaq əkir və nəyin nə olduğunu bilmir. Əslində isə texnika inkişaf edir, bundan əlavə mütəxəssislər də öz üzərində işləyib çalışırlar ki, müasir dövrlə ayaqlaşsınlar. Bu baxımdan mənəm-mənəmçilik kəndlinin öz düşmənidir. Ola bilər, ölkədəki mütəxəssislərə inanmır. Ən azından kəndlinin də müəyyən savadı olmalıdır ki, müasir dövrlə ayaqlaşsın. Hesab edirəm ki, kənd təsərrüfatı sahəsinin işçiləri özlərinə kurs keçdikdən sonra, kənd nümayəndələri ilə görüşüb, məsələni onlara izah etməlidirlər. Bundan əlavə vaxtilə rüşvətlə verilən kredit məsələsi tamamilə sıradan çıxmalıdır. Bunun üçün Hesablama Palatası daim yoxlama aparmalıdır. Vaxtilə başında durub, cəzalanmayan insanlar bu gün cəzalanmalıdırlar. Əks halda kəndlinin inamını qazanmaq çətin olacaq. Hollandiya kənd təsərrüfatı siyasəti burada təbliğ olunmalıdır. Düzdür, effekt 100 faiz verməyə bilər. Çünki fərqli yerlərdə yerləşən ölkələrdir. Amma müəyyən tərəfdən inkişafa təkan verə bilər".

**Aynurə Pənahqızı**

# Əhali kommunal xidmətlər və ərzağın bahalaşmasından narazıdır

*Rəşad Həsənov: "Sevindirici haldır ki, nəhayət, keçirilən sorğularda inandırıcı nəticələr gündəmə gətirilib"*

Sosial Tədqiqatlar Mərkəzinin (STM) vətəndaşlar arasında keçirdiyi sorğunun maraqlı nəticələri üzə çıxıb. Sorğuda üç istiqamət üzrə suallar soruşulub:

- Mövcud sosial-iqtisadi vəziyyət və gözləntilər
- Manatın məzənnəsindən gözləntilər və Mərkəzi Bankın hazırki valyuta (kurs) siyasətinin dəyərləndirilməsi
- Ermənistanda keçirilən növbədənkənar seçkilərin nəticələrinə münasibət.

Sorğu nəticələrinə əsasən, son aylar ərzində əhalinin maddi vəziyyətində bir sıra istiqamətlərdə mənfi tendensiyalar müşahidə edilib. Əhali kommunal xidmətlər və ərzağın bahalaşmasından narazıdır. Respondentlərin 36.1 faizi elektrik (işıq), 28.7 faiz qaz və 25.6 faizi isə yanacaq tariflərinin 2021-ci ildə artacağını gözləyir.

Son günlər qazın qiymətindəki dəyişikliklər, ilin əvvəlində isə yanacaq tariflərinin çoxalması əhali arasında narazılıq yaradıb. Maraqlıdır, hökumət mövcud narazılıqları qismən də olsa aradan qaldırmaq üçün alternativ olaraq hansı tədbirlər görə bilər?

**İqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə bildirib ki, dövlətin təbii inhisarçı olduğu, o cümlədən kommunal xidmətlər, enerji təchizatı və s. sahələrdə vəziyyəti diqqətlə analiz etməsi lazımdır:** "Məsələn, Azərbaycan İnvestisiya Holdinqi yaradılanda əhalidə gözləntilər böyük idi. Lakin əksi baş verdi. İnvestisiya Holdinqi fəaliyyətini müəssisələrin büdcələrdən asılılığını azaltmaq və büdcədən subsidiyaların və dotasiyaların ayrılmasının qarşısını almaq məqsədilə daha çox gəlirlərin artması istiqamətində qurdu.

Bu da fəaliyyətin təkmilləşdirilməsi yönündə deyil, daha çox qiymətin artırılması yolu ilə gəlirlərin çoxalmasına nail olmaq cəhdi kimi qiymətləndirilə bilər. Hansı ki, əslində bu müəssisələrin xərclərinin əhəmiyyətli dərəcədə şişirdilməsi, onların fəaliyyətində böyük korrupsiya problemlərinin olması faktları çox inandırıcıdır. Hər bir vətəndaş bunu görür. Hətta ölkə başçısı səviyyəsində də zaman-zaman bu istiqamətdə müəyyən iradlar səsləndirilir.

Təəssüf ki, yeni idarəetmə modelində məhz xərclərin optimallaşdırılması deyil, gəlirlərin artırılması yolu ilə problemi həll etməyə çalışırlar.



"Hökumət daha konkret və hədəfli siyasət aparmalıdır ki, qəbul edilən qərarlar əhalinin rifahına təsirini müəyyən qədər neytrallaşdıra bilsin"

Fikrimcə, bu siyasətə yenidən baxılmalı və kommunal xidmətlərin əlçatanlıq prinsipi və sosial duruma təsiri nəzərə alınmaqla qərarlar qəbul edilməlidir".

*İqtisadçının qənaətincə, qəbul edilən qərarların müxtəlif sosial qrupa təsirini təhlil etməklə onlara bəzi subsidiyalar, gəlirlərin artırılması və dəstəyin verilməsi istiqamətinə mexanizmlər işlənib hazırlanmalıdır:* "Məlumdur ki, dizel yanacağının qiyməti qalxarkən hökumət əslində nəqliyyat sektoruna subsidiyanın veriləcəyinə dair işlərin aparılacağı vədini vermişdi. Lakin prosesdən artıq 6 ay keçib və heç bir dəstək, subsidiya yoxdur. Haqlı olaraq nəqliyyat sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri mövcud durumdan narazıdırlar. Ona görə əhalidə müvafiq kütləvi sərnişindaşıma sahələrində qiymətlərin artmasına dair gözləntilər yaranır.

Hökumət bu istiqamətdə daha konkret və hədəfli siyasət aparmalıdır ki, qəbul edilən qərarlar əhalinin rifahına təsirini müəyyən qədər neytrallaşdıra bilsin. Əhalinin narazılığı təbiidir, bu, dünən də belə idi, indi də belədir. Sevindirici haldır ki, nəhayət, keçirilən sorğularda inandırıcı nəticələr gündəmə gətirilib. Çünki əksər hallarda sorğu nəticələri reallığı əks etdirmir".

**Yeganə Bayramova**

# "İndi də yeni mövzu çıxıb"



"Sosial şəbəkələrə nəzər yetirirəm, bir gün hamı xoş sözlər yazır, təəccüblənirəm. Növbəti gün sanki o insanların yerinə "maşenniklər", yaltaqlar, ikiüzlülər, başqalarının heyfini məndən çıxanlar gəlir".

*Nazilə Səfərli: "Zəng edib deyirlər ki, şəhid ailəsiyik, məclisə neçəyə gələrsiniz?"*

**"Şərq" xəbər verir ki, bu sözləri şairə Nazilə Səfərli söyləyib. O, instaqram səhifəsində açıqlama yayıb. Bir neçə məsələ haqda danışıb:**

"Mesaj yazıb, xınayaxdı məclislərinə dəvət edirlər. Mən də təklifləri dəyərləndirirəm. Çünki instaqram profilimi iş üçün açmışam. Yeniyetmə qız deyiləm ki, burada özümə sevgili axtarım. İşimlə əlaqəli təklifləri cavablandırmalıyam. Yazırlar, əlaqə nömrəmi göndərirəm, sonra "konsert" başlayır. Deyir, uşağım, atam xəstədir. Yaxın zamanda da yeni mövzu çıxıb. Məsələn, söyləyirlər ki, şəhid ailəsiyik, məclisə neçəyə gələrsiniz? Bu, şahmatvari gedişdir, artıq alışmışıq. Əgər şəhidin bacısı, övladı, anası, xanımı yazsa ki, toyumuz var, nə qədərə gələrsiniz, təmənnasız gedərəm. Amma şəhidin baldızı ödənişsiz xidmət istəyir. Belə şey olar?! Bəsdirin də! Şəhidin baldızı, sənin bacın xınayaxdı məclisinə gələ biləcək? Yox. Axı həyat yoldaşının ili çıxmayıb. Bacına nə hörmət qoyursan?! O qara yaylıqda, sən əli xınalı? Biz şəhidlərin ayağının altda bir ovuc torpağıq. Şəhid ailələrindən kim zəng etsə, əlbəttə, təmənnasız iştirak edərik. Tək mən deyil, bütün şou nümayəndələri bu addımı atar".

**N.Səfərli ondan müxtəlif yardımlar istənildiyini də söyləyib:**

"Biri zəng edib ki, uşağım xəstədir, həkimə aparmaq lazımdır. O uşağı dünyaya gətirəndə məndən soruşmusan? Mən kiməm? Öz evimdə xəstələr var, şikayət etməmişəm. Eşitmisiz ki, deyim evimdə xəstə var, kömək edin? Hamı kimi iki il işləmədim. Bir dəfə də dilə gətirmədim, nəsə satıram demədim. Fikirləşəcəksiniz varındır, xərcləmisən. Xeyr! İnsanın qüruru olur. Acından ölərəm, soğanla çörək yeyərəm, amma minnət götürmərəm. Bəlkə də mənim mövqeyim, yanaşmam fərqlidir. Lakin insan qardaşından pul istəmədiyi halda, siz yadlardan necə istəyirsiniz? Hansı vəzifədəyəm? Nə ixtiyarım var ki, nəyəsə qarışım? Heç kiməm!".

**Samirə**



## Mətanət Əsədova iddialı danışdı

"Zeynəb Xanlarovadan sonra mən Leyli olmalı idim"

**Müğənni Mətanət Əsədova "Şou gündəm" verilişinə bir sıra açıqlamalar verib.**

**"Şərq"in məlumatına görə, o, "Leyli və Məcnun" operasında yer almadığı üçün gileylənib:**

"Rübabə Muradova, Zeynəb Xanlarovadan sonra mən Leyli olmalı idim. Guya oxumağımdan bixəbərdilər? Hamı gözəl bilir. Görəsən, məndən sonra ikinci Leyli rolunu ifa edə biləcəkdilərmi? Keçmişdən sənəti, yaddan çıxmış muğamları, əsərləri yenidən gündəmə gətirdim. Hər janrda ifa etdim. Çox söhbətlər var. Danışsam, nişan asacaqlar? Deyəcəklər, yenə danışdı. Məndə gözəl alınardı. Məcnun kimi isə Alim Qasımovu görərdim".

**Samirə**

## Avtobus sürücüləri özbaşınalıq edirlər

Pərvin Abıyeva da onlardan yazdı



**Bir neçə gün əvvəl sükan arxasında telefonla oynayan avtobus sürücüsü qəza törədib. Hadisə nəticəsində "Baku Bus"un iki avtobusu toqquşub və 7 nəfər xəsarət alıb.**

Bu məsələ sosial şəbəkələrdə qəzəblə qarşılanıb. Hər kəs sürücünün məsuliyyətsizliyini qınayıb.

"Şərq"in məlumatına görə, aktrisa Pərvin Abıyeva mövzuya sərt reaksiya verib. O, instaqram hesabında olayın görüntülərini paylaşaraq bunları yazıb:

**"Gözlənilirdi. Avtobus şoferləri çox "bezpredel"lik edirlər. Dəfələrlə şahidi olmuşam".**

**Samirə**

## Röya onu təriflədi

"Pərviz oxumağa başlasa, biz gərək evdə oturaq"



**Xalq artisti Röya Ayxan "Səhər-səhər" proqramına açıqlamasında bəstəkar Pərviz Mahmudovdan danışıb.**

**"Şərq" xəbər verir ki, o P.Mahmudovun yaxın dostu olduğunu söyləyib:**

"O həm də xit mahnılarımın atasıdır. Mənim yanımda səs rejissoru kimi çalışıb, ona çox güvənirəm. Bəstələri ilə məni necə xoşbəxt edirsə, özü də, balası da elə xoşbəxt olsun. Onun haqda səhərə qədər danışa bilərəm. Pərviz oxumağa başlasa, biz gərək evdə oturaq. Öz malını yaxşı sata bilir. Gecə saat 4 də olsa, bəstəni mənə göndərir. Elə əsəri yoxdur ki, onu sevməyim. Məncə, "Çarəsiz xəstəlik" bizim ən gözəl işimizdir".

**Samirə**

# Afət Fərmanqızı çox böyük bir savaşa girib

*"Mənə tələlər qurmaq istəyirlər, oyunlar hazırlayırlar"*

Müğənni Afət Fərmanqızı "Xəbərətər" verilişində xanım həmkarı tərəfindən təhqir etdirilməsi haqda danışıb. "Şərq" xəbər verir ki, o yaşadıqlarından söz açıb:

"Mən büdrəmədim. Tələlər qurmaq istəyirlər, oyunlar hazırlayırlar. Pul dövriyyərə girir, adam tuturlar. Həmin açıqlamanı edəndə affekt halına düşdüm. Bir adamı öyrədib, mənə zəng edib ki, gürcüstanlıyam. Halbuki Bakı ləhçəsində danışır. Artıq şantaj edirlər. Mənim alnım açıq olmasa, sakitcə oturaram. Aydan arı, sudan duruyam. Fikirləşmədilər ki, belə açıqlayaram. Artıq təngə gəldik. Məndən əvvəl bir xanım sənətçi də bu barədə danışdı. Lakin o, qorxub geri çəkildi, açıqlamanı da sildi. Mən danışmazdan əvvəl yüz ölçüb, bir biçirəm. Emosiyaya qapılıb nəsə söyləmirəm. Altı aydır xəbərdarlıq edirəm. Namus məsələsinə görə ölməyə də razıyam. İnsan həyata bir dəfə gəlir. Siz mənim yaşadıqlarımın 10 faizini belə bilmirsiniz. Bu təlanı qurmasının səbəbi, onun xəstə olmasıdır, ikincisi isə Manafla barışmağımdır".



"Altı aydır xəbərdarlıq edirəm. Namus məsələsinə görə ölməyə də razıyam"

**Samirə**

# Oksana ər çörəyi yeyir

"Lakin öz qazancım da yerindədir"

**Aktrisa, rəqqasə Oksana Rəsulova "Sözbaz" verilişində qonaq olub. O, həyatı və sənəti haqda danışıb.**

"Şərq" xəbər verir ki, sənətçi proqramda bunları söyləyib:

"Ər çörəyi yemişəm. İndi də yeyirəm, lakin öz qazancım da yerindədir. Həyat yoldaşımın cibinə baxmıram. Onun da, mənim də öz qazancımız var. İllərdir özüm özümü saxlayıram. Evimi də, maşınımı da təkbaşıma almışam. Məni ən yaxşı anlayan anamdır. Yuxularından, yaxud da səsim pis gələndə başa düşür. Maddi durumum pis olanda depressiyaya düşürəm. Amma tez depressiyadan çıxıram".

**Samirə**



# Fit səsi... Bu kənddə quş dili ilə danışırlar



(Əvvəli səh: 16-də)

Fit səsidir. Kənd sakinləri fit çalmaqla bir-birini haraylayır, vacib məlumatları çatdırır. Fit səsi Quşköy sakinlərinin rabitə, əlaqə dilidir. Buna "islıq dili" deyilir. Quşköy də adını bölgədə yüzillərdir istifadə edilən fit səsindən alır.

Bəzi mənbələr bölgədəki ”quş dili”nin 500, bəzi mənbələrsə hətta 300 il bundan əvvəl istifadə edildiyini yazır. Bir başqa mülahizə bölgə xalqının Rusiya imperiyası işğalı zamanı yadelli əsgərlərin gəlişini və hansı istiqamətdə irəlilədiklərini xəbər vermək məqsədilə istifadə edildiyi ilə bağlıdır. Quşköy 1431-ci ildə Osmanlı torpaqlarına daxil edilib. 1916-cı ildə isə Rus imperiyasının işğalına məruz qalıb. 2 il işğalçılarla mübarizə aparıb.

Bölgənin coğrafiyası da sakinlərin bir-birilə yaxından təmasına əngəldir. Quşköydə evlər birbirindən xeyli aralı məsafədə yerləşir. Bir evin qarşısında dayanıb digər evdəki sakini səsləməyə insan səsi yetməz. Odur ki, sakinlər

> "Bu dil onu öyrənmək istəyənlərə dərnəkdə tədris olunur. Çalışqan tələbə bir həftəyə bu dili öyrənə bilər"

fit çalmaqla bir-birini arayır, əlaqə saxlayır. Quşköyün təbiəti çox gözəldir. Quşbaxışı nəzər yetirdikdə kəndin iki dağ arasında ”gizləndiyi” bilinir. Kəndin 5 məhəlləsi var. Ən uzaq məhəlləsi İlan gölüdür, hansı ki, evləri dərə yatağındadır. Dərənin təpəsində isə Şahin qayası dayanır.

Sosial şəbəkələrdə ”Ruhi Çenet Medya” tərəfindən yayınlanan videoda Quşköy sakinləri fit dilindən necə istifadə etdiklərini anladır. ”Şərq” sakinlərin maraqlı dialoqunu təqdim edir.

Kənd sakini Pakizə danışır ki, qonşusu Xədicəni çağırmaq üçün fit çalır, o da hay verir:

-Qız, Xədicə!

-Nə var?

-Sabah çay toplamağa gəl!

-Tamam...

Və ya:

- Nədim, yemək hazır, soyutma...

- Gəlirəm...

**Kənd sakini deyir ki, fit səsiylə danışmaq onu uzun məsafə qət edib dərə aşağı enib qonşusuyla əlaqə yaratmaqdan xilas edir:** ”Evlər arasındakı məsafə çox uzaqdır. Burda dayanıb çığırsam, səsimi eşitməzlər. Amma fit çalaraq nə demək istədiyimi anladıram. Birbirimizi başa düşür və cavab veririk. Əvvəllər telefon yox idi. İnsanlar birbirini uzaqdan haraylayırdı. Bizim kənddə də evlərarası məsafə uzaq olduğundan bu üsula əl atıblar”. Reportyorun ”birdən bu dil öldü, yox oldu, onda necə?” sözü qarşısında Pakizə ”bu dil qeyb olsa, biz də öləcəyik”, deyir. Quşköy sakinləri hətta İstiqlal Marşını da fit səsiylə oxuya bilirlər. 1997-ci ildə Quşköydə ”fit dili” festivalı keçirilib və 2001-ci ildə dərnək fəaliyyətə başlayıb. Bu dil onu öyrənmək istəyənlərə dərnəkdə tədris olunur. Çalışqan tələbə bir həftəyə bu dili öyrənə bilər. Daha bir sevindirici hal budur ki, ”fit dili” YUNESCO tərəfindən 2017-ci ildə mühafizə olunan qeyri-maddi-mənəvi irs siyahısına daxil edilib.

**Məlahət Rzayeva**



# Yaylada tək yaşayan nənə...

“Canım sıxılınca odun topladım. Heyvanlara yem verdim”

(Əvvəli səh: 16-də)

**O, hətta 2011-ci ildə keçirilmiş ”Ən çox bəyənilən ev xanımı” anketində qalib seçilir və yaşının çox olmasına baxmayaraq cəsarətli həyat tərzi səbəbindən ”Robinson Nənə” olaraq tanınıb.**

Fadime Kayacı həyatının bir sənədli filmin mövzusu olduğu üçün xoşbəxt olduğunu söyləyib: ”Yayda və qışda bu yaylada tək yaşadım. Canım sıxılınca odun topladım. Heyvanlara yem verdim. Sonra gəlib mənim həyatım haqqında sənədli filmə çəkmək istədilər. Ümid edirəm ki, film çox gözəl olub”.

Filmin rejissoru Orhan Tekelioğlu açıqlamasında bildirib ki, illərdir ki, 2000 metr yüksəklikdə bir mühitdə yaşayan Kayacı yaşadığı yeri tamamilə meşə sahəsinə çevirib. O qeyd edib ki, çəkdikləri filmin xüsusi mükafata layiq görülməsi onları çox sevindirib.

**Aynurə Pənahqızı**

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 01.06.2021-ci il tarixli (daxil olma 05.07.2021), 9177-106243/21-15-19 saylı sifarişi ilə Bakı şəhəri, Nərimanov rayonu, Əliəşrəf Əlizadə küçəsi, ev 36 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində olan, ümumi sahəsi 631 kv. metr olan qeyri-yaşayış sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 22 iyul 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti icra orqanının 20.05.2021-ci il tarixli, 6788-10624321-15-19 saylı sifarişi əsasında aparılmış qiymətləndirmə hesabatı ilə 1.072,700 (bir milyon yetmiş iki min yeddi yüz) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 53.635 (əlli üç min altı yüz otuz beş) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq ”Qeyd”ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 06.07.2021-ci il tarixli (daxil olma 06.07.2021), 9438-233797/2018-15-27 saylı sifarişi ilə: beton dabanaltı (1000x1000) - 1 ədəd; beton dabanaltı (1000x800) - 1042 ədəd; beton bilərzik (1000x250) - 37 ədəd; veton bilərzik (1000x300) - 90 ədəd; beton bilərzik (1000x400) - 681 ədəd; beton bilərzik (1000x600) - 655; beton bilərzik (1500x400) - 70 ədəd; beton bilərzik (1500x600) - 101 ədəd; beton konus (1000x600) - 787 ədəd; beton konus (1500x600) - 75 ədəd; beton plitə (1,5) - 378 ədəd; beton plitə (2x2) - 81 ədəd; beton plitə (1x1) - 13 ədəd; beton boru (800x2000) - 29 ədəd açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 22 iyul 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti ümumilikdə 320.245 (üç yüz iyirmi min iki yüz qırx beş) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 32.024,5 (otuz iki min iyirmi dörd manat əlli qəpik) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq ”Qeyd”ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

6) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

7) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

8) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

9) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə ”sifarişçi” və (ya) ”təşkilatçı” tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

10) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini ”sifarişçi” icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və **“Azərbaycan”** nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, **“Azərbaycan”** nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611** SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1208



# Araşdırma aparılıb

Balıqların narkotikə aludə olduqları təsbit edilib

**Çex Respublikasında bir qrup tədqiqatçı balıqlarla bağlı maraqlı bir araşdırma aparıb.**

"Şərq" "Sabah.com"a istinadən bildirir ki, "metamfetamin" kimi dərmanların suya qarışdırıldıqda balıqların narkotikə aludə olduqları təsbit edilib.

Tədqiqatçılar narkotiklə çirklənmiş sulara qoyulmuş qəhvəyi balıqlarla laboratoriya təcrübələri apardılar. "Metamfetamin"lə çirklənmiş sulara qoyulmuş balıqların daha az aktivləşdiyi və narahatlıq yaradan bağımlılığı meydana çıxıb.

Çexiya Həyat Elmləri Universitetinin mütəxəssisi, araşdırmanın müəllifi Pavel Horki bildirib ki, balıqlar təmiz suya qoyulduqdan bir müddət sonra "metamfetamin"i axtarırlar.

**Yeganə**

# Telefon başına bəla oldu

Tualetə düşən qız dünyasını dəyişib



**Ukraynanın Odessa bölgəsində 16 yaşlı qız tualetə düşən telefonunu götürmək istəyərkən ölüb.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, qızın başına gələnlər Ukrayna Cinayət Məcəlləsinin 115-ci maddəsinə əsasən "uğursuz qəza" kimi qəbul edilib.

Odessa Polis İdarəsindən verilən açıqlamaya görə, tualet çuxuruna düşən qız saatlarla orada qapalı qalıb. Nəticədə zəhərlənərək dünyasını dəyişib.

**Yeganə**

# "Tosuncuk"un qardaşı da həbs edildi



**"Çiftlik Bank"ın qurucusu, "Tosuncuk" ləqəbli Mehmet Aydının qırmızı bülletenlə axtarılan qardaşı Fatih Aydın da həbs edilib.**

"Şərq" "qafqazinfo"ya istinadən xəbər verir ki, F.Aydın Uruqvayda saxlanılıb. Onun ekstradisiyası üçün heyət Uruqvaya yola düşəcək.

*Qeyd edək ki, dələduzluq edərək insanların pulunu mənimsəyən Mehmet Aydın Braziliyada polisə təslim olmuşdu. O, hazırda Ədirnə Qapalı Həbsxanasındadır.*

# Astronavtlar kosmosda paltar yuyacaq

NASA BKS-ə bir neçə dəst çamaşır yuyucusu göndərməyi planlaşdırır



**NASA paltarların kosmosda yuyulması üçün metodlar hazırlamaq məqsədilə iri çamaşır yuyucu istehsalçısı ilə birləşib.**

Hal-hazırda Beynəlxalq Kosmik Stansiyadakı (BKS) astronavtların paltarları çirklənərək yararsız hala düşür və atılır. "Şərq" deyerler.org-a istinadən bildirir ki, NASA astronavtlara paltarlarına necə qulluq etməyi öyrətmək niyyətindədir. Agentlik iri çamaşır yuyucu istehsalçısı ilə birlikdə kosmosda paltarların təmizlənməsi üçün üsul tapacağını, bunun Yer üzündə olduğu kimi aylarla, hətta illərlə yenidən istifadə ediləbiləcəyinə ümid edir. Beləliklə, bu ilin sonunda NASA BKS-ə bir neçə dəst çamaşır yuyucusu göndərməyi planlaşdırır. 2021-ci ilin dekabr ayından etibarən alimlər fermentlərin və digər maddələrin altı aylıq cazibəsizlik şəraitində necə reaksiya verəcəyini müşahidə edəcəklər. 2022-ci ilin may ayında isə astronavtlara ləkə təmizləyici vasitələr çatdırılacaq.




# Fit səsi...

## Bu kənddə quş dili ilə danışırlar




**XXI əsrdə quş dili danışan bir toplum olduğuna inana bilərsiniz? Hazırcavablar "niyə də yox?! Nələr yoxdu dünyada?! Nələr olmur bu həyatda..." deyəcək.**




Düz deyirlər. Türkiyənin Doğu Qara Dəniz bölgəsindəki Giresunda Çanaqçı bölgəsinin Quşköy adlı kəndinin sakinləri quş dili vasitəsilə bir-biriylə ünsiyyət saxlayır. Yanlış anlaşılmasın, "quş dili" dediyimiz Süleyman peyğəmbərin vaqif olduğu həqiqi quş dili deyil.

"Bu dil onu öyrənmək istəyənlərə dərnəkdə tədris olunur. Çalışqan tələbə bir həftəyə bu dili öyrənə bilər"



*(Davamı səh: 15-də)*

**Məlahət Rzayeva**

# Yaylada tək yaşayan nənə...

"Canım sıxılınca odun topladım. Heyvanlara yem verdim"





**37 ildir ki, yaz-qış Karakısrak Yaylasında tək yaşayan və bölgədə "Nənə Robinson" kimi tanınan 87 yaşlı Fadime Kayacının həyatı sənədli filmə çəkilib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, "Fatma Kayacının bilinməyən hekayəsi" adlı sənədli film İtaliyada təşkil edilən "NuoviMondi Film" festivalında 600 əsər arasında münsiflərin xüsusi mükafatına layiq görülüb. Qeyd edək ki, yaz aylarını Tonyanın 1900 yüksəkliyində yerləşən Karakısrak Yaylasında keçirən nənə az qala bir əsrdir ki, burada yaşayır. Buna səbəb isə qardaşı oğlu 14 yaşlı Əli Haydar Kayacının qıcolmadan vəfat etməsi olub. Belə ki, bir gün yaylada ot toplayan Fadime Kayacı evinə gedərkən qardaşı oğlunun cansız bədənini görür. Dağlıq ərazidə dəfn olunan qardaşı oğlunun ölümündən çox kədərlənən Kayacı qohumlarının israrına baxmayaraq həmin tarixdən sonra öz yaşadığı kəndinə qayıtmır və illərlə burada yaşamağa başlayır.

*(Davamı səh: 15-də)*

**Aynurə Pənahqızı**



# İnsanlar 130 il yaşaya biləcək

**Həyat davamlılığının yüksəlməsi cəmiyyətin iqtisadiyyatına, səhiyyəsinə, əmək bazarına, sosial və mədəni faktorlarına ciddi təsir göstərir.**

Artıq bir neçə 10 ildir ki, yaşı 100-ə çatmış insanların sayı artır və onların sayı hal hazırda demək olar 500.000 nəfərdir. Onların arasında yaşı 100-ü də keçmiş şəxslər var. Onlar uzunömürlü sayılırlar və onların arasında 110 yaşı keçmiş insanlar da mövcuddur. Bu tendensiya artmaqda davam edəcək və artıq 21-ci əsrin sonuna kimi insanların müəyyən hissəsi 120-124 il yaşaya biləcək. Bəzi qrup insanlar isə ümumiyyətlə 130 il yaşama şansına sahib olacaqlar. Vaşinqton Universitetindən olan alimlər insan həyatının davamlılıq sərhədini incələmək üçün statistik modelləşdirmədən istifadə ediblər.